*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

***Heydər ƏLİYEV***

ASCO 1858

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

10 iyul 2019-cu il | № 49-52 (9331) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### ABŞ-dan olan qonaqlar ASCO-nun fəaliyyəti barədə məlumatlandırılıblar



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) Amerika Birləşmiş Ştatlarından olan qonaqlarla görüş keçirilib.*

Səh. 2

### Fəxri fərmanlar sahiblərinə təqdim edilib



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sədri Rauf Vəliyevin əmrinə əsasən "Dənizçi Günü" ilə bağlı istehsalat tapşırıqlarının yerinə yetirilməsində yüksək nəticələr göstərən, dəniz nəqliyyatının inkişafında əmək sərf edən və mühüm nailiyyətlər qazanan bir qrup əməkdaş Fəxri fərmana layiq görülüb.*

Səh. 3

### "AXDG" QSC-nin sədri Rauf Vəliyev qeyri-rəsmi formatda gənc dənizçilərlə görüşüb



*Gənclərə diqqət və qayğı, onların karyera yüksəlişi məsələləri ASCO-nun başlıca fəaliyyət istiqamətlərindəndir.*

Səh. 4

### Tacikistandan ixrac və idxal edilən yüklərin Kurık-Ələt-Kurık istiqamətində ASCO-nun gəmi-bərələri ilə daşınması müzakirə olunub



*Düşənbə şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin dəmir yolu rəhbərlərinin 14-cü və İƏT-in Tranzit Nəqliyyat Koordinasiya Şurasının (TTCC) Dəmir Yolu Komitəsinin 8-ci iclası keçirilib.*

Səh. 5

### Qocaman dənizçilər evlərində ziyarət olunub



*Ənənəyə sadiq qalaraq dənizçilər qocaman həmkarlarını evlərində ziyarət edirlər.*

Bu dəfə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasının İnsan Resursları Xidməti və Sosial inkişaf və nəqliyyat qrupunun əməkdaşları kapitan Mehdi Quliyev və bosman İsa İsmayılova baş çəkiblər.

Səh. 6

### Avropa Oyunlarının standartları Bakıda müəyyənləşdirilib



*İyunun 21-30-da Belarusun paytaxtı Minskdə ikinci Avropa Oyunları keçirildi.*

İkinci Avropa Oyunlarında qitənin 50 ölkəsindən 4 mindən çox atlet idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə apardı.

Səh. 8

# Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Bu gün Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.

Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Əziz həmvətənlər!

Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.

UNESKO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Ümumdünya İrsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 7 iyul 2019-cu il.

# Hər təltifin öz sevinci var


















***Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il oktyabrın 22-də imzaladığı Sərəncamla "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalına layiq görülən dəniz nəqliyyatı işçilərinə medalların və keçən ilin "ən yaxşı"ları müsabiqəsinin qaliblərinə mükafatların təqdimolunma mərasimi keçirilib.***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev tədbirdə çıxış edərək bildirib ki, dənizçilərin fədakar əməyi hələ Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə layiqincə qiymətləndirilib. Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də dənizçilərə hər zaman xüsusi diqqət və qayğı göstərir, müstəqil Azərbaycanımızın iqtisadi qüdrətinin artırılması naminə gördükləri işləri yüksək dəyərləndirir.

Rauf Vəliyev "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis olunmasını da ölkə başçısı cənab İlham Əliyevin dənizçilərə göstərdiyi etimadın və yüksək dəyərin bariz nümunəsi olduğunu bildirib. Qeyd edib ki, Gəmiçiliyin 160 illik yubileyi ərəfəsində təsis olunan və təsdiqlənən medalla adından da göründüyü kimi vəzifələrini nümunəvi icra edən, istehsal fəaliyyətində yüksək nəticələr göstərən gəmiçilik sahəsində çalışan işçilər, Azərbaycan Respublikasında gəmiçilik sahəsinin inkişafı və təkmilləşdirilməsində xüsusi rolu olan şəxslər təltif edilirlər.

ASCO-nun rəhbəri bildirib ki, ölkə başçısının bu sahəyə diqqət və qayğısı nəticəsində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC fəaliyyəti ərzində stabil inkişaf nümayiş etdirir. Fəaliyyətinin daha effektiv və səmərəli edilməsi üçün şirkətdə yeni yanaşmalar tətbiq olunur. Bütün görülən işlər birmənalı şəkildə ASCO-nun inkişafına müsbət təsir göstərir.

***(Davamı 2-ci səhifədə)***

# ABŞ-dan olan qonaqlar ASCO-nun fəaliyyəti barədə məlumatlandırılıblar





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) Amerika Birləşmiş Ştatlarından olan qonaqlarla görüş keçirilib.***

Görüşdə 2015-2018-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri kimi fəaliyyət göstərmiş Robert Sekuta, ABŞ-ın Birləşmiş Ehtiyat Qüvvələrinin rəhbəri kontr-admiral Ron Maklaren, Xəzər Araşdırma Mərkəzinin direktoru Əfqan Niftiyev iştirak ediblər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev qonaqların diqqətinə çatdırıb ki, Azərbaycanda son illər nəqliyyat sisteminin inkişafı istiqamətində ciddi layihələr həyata keçirilir. Reallaşdırılan layihələr hesabına ölkəmiz sürətlə iri tranzit və logistik mərkəzə çevrilir.

Görüş zamanı beynəlxalq və regional nəqliyyat layihələrinin reallaşması prosesində ASCO-nun tutduğu mövqe, onun yenilənən donanmalarının fəaliyyəti, Transxəzər Beynəlxaq Nəqliyyat Marşrutu (TBNM) çərçivəsində Gəmiçiliyin gördüyü işlər haqqında da qonaqlara ətraflı məlumat verilib. Rauf Vəliyev bildirib ki, Xəzərdə nəqliyyat və ixtisaslaşmış donanmaları ilə dəniz nəqliyyatı xidmətləri göstərən ASCO bir bazardan asılılığı aradan qaldırmaq üçün 2014-cü ildən Qara və Aralıq dənizi hövzəsində də fəaliyyətini bərpa edib.

Qonaqlara məlumat verilib ki, ASCO dünyanın nüfuzlu təsnifat şirkəti olan Amerika Gəmiçilik Bürosu (ABS) və audit şirkəti "Ernst & Young"-la da əməkdaşlıq edir. Bu şirkətlərin təqdim etdikləri sertifikat, o cümlədən hazırladıqları hesabatlar şəffaflıq prinsipinə əsasən ASCO-nun rəsmi internet səhifəsində yerləşdirilir.

Ətraflı təqdimat üçün minnətdarlığını bildirən ABŞ-dan olan qonaqlar Azərbaycanın nəqliyyat-logistika, tranzit imkanlarının genişləndirilməsi istiqamətində gördüyü işləri müsbət qiymətləndiriblər.

Sonda qonaqları maraqlandıran suallar da cavablandırılıb.

# Hər təltifin öz sevinci var

















***(Əvvəli 1-ci səhifədə)***

Sədr dənizçilik peşəsinin nüfuzunun artırılması, bu sahənin zəngin tarixinin araşdırılaraq üzə çıxarılması və qorunması istiqamətində görülən işlərdən də danışıb. Gələcəkdə bu istiqamətdə daha böyük yeniliklərin olacağını bildirib.

Tədbirdə çıxış edən qocaman dənizçi, uzaq səfərlər kapitanı Muxtar Axundov da dənizçi peşəsinin nüfuzundan söz açıb. Bu peşənin şərəfli və məsuliyyətli olduğunu deyən Muxtar Axundov ASCO-da işləməyin üstünlükləri, burada əməkdaşlar üçün yaradılan geniş imkanlardan da danışıb. O, təcrübəli dənizçi kimi həyata keçirilən işləri yüksək qiymətləndirdiyini bildirib.

Daha sonra Rauf Vəliyev "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalını sahiblərinə təqdim edib.

Bundan başqa, mərasimdə ASCO-da 2018-ci ilin yekunlarına görə "Ən yaxşı gəmi", "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik", "Ən yaxşı elektrik mexaniki", "Ən yaxşı bosman", "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı gəmi təmirçisi", "Ən yaxşı müəllim" və "İlin gənc dənizçisi" nominasiyaları üzrə qaliblər də mükafatlandırılıb.

"Ən yaxşılar" ASCO-nun rəhbəri Rauf Vəliyevin imzaladığı əmrlə müsabiqənin keçirilmə qaydaları və Təşkilat komitəsinin müvafiq protokolu nəzərə alınaraq müəyyən edilib.

Nominasiya üzrə birinci yerin qaliblərinə onların aylıq vəzifə maaşlarının iki misli məbləğində, ikinci yerin qaliblərinə isə onların aylıq vəzifə maaşlarının bir misli məbləğində mükafat verilib. "Ən yaxşı gəmi" nominasiyası üzrə birinci yeri tutmuş (XDND-nin "General Əsədov" gəmisi, DND-nin "Zərifə Əliyeva"gəmisi) gəmilərin heyət üzvlərinin hər biri isə onların aylıq vəzifə maaşlarının bir misli, ikinci yeri tutmuş (XDND-nin "Atlet-24" gəmisi, DND-nin "Nəsimi" gəmisi) gəmilərin heyət üzvlərinin hər biri onların aylıq vəzifə maaşlarının 0,5 misli məbləğində mükafata layiq görülüblər.

"Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalına layiq görülənlər və "Ən yaxşılar" nominasiyası üzrə qaliblər göstərilən qayğı və diqqətə görə təşəkkürünü bildirib, etimadı daha yüksək əmək nailiyyətləri ilə doğruldacaqlarına söz veriblər.

# Ölkəmizin üzərindən keçən yüklərin həcminin artırılması istiqamətində atılan addımlar nəticəsiz qalmır



***Çindən yola düşən daha bir blok qatarı Azərbaycana çatıb. İyulun 6-da Abşeron Logistika Mərkəzində qatarın qarşılanma mərasimi keçirilib.***

Mərasimdə iqtisadiyyat naziri Şahin Mustafayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Sian şəhəri Xalq hökumətinin vitse-meri Qao Qao, Şansi vilayətinin Kommersiya Departamentinin direktor müavini Tan Yuntanq iştirak ediblər.

Layihə bu ilin aprelində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Forumunda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri C.Qurbanovun iştirakı ilə qurumun törəmə şirkəti olan "ADY Konteyner" MMC və Çinin "Xi'an Continental Bridge International Logistics Co. Ltd" şirkəti arasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə hərəkət edən konteyner qatarlarının təşkili üzrə əməkdaşlıq çərçivəsində baş tutub. Hər iki şirkət cari ildə 30 konteyner qatarı (2460TEU) buraxmağı planlaşdırır.

Mərasimdə çıxış edən iqtisadiyyat naziri Ş.Mustafayev Azərbaycan-Çin münasibətlərinin inkişafından danışıb, Prezident İlham Əliyevin 2015-ci ildə Çin Xalq Respublikasına tarixi səfərini qeyd edib. Nazir Azərbaycanın Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk qoşulan ölkələrdən olduğunu vurğulayıb.

O, cari ilin 6 ayında Azərbaycanla Çin arasında ticarət dövriyyəsinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artdığını qeyd edib. Çinlə həm siyasi, həm iqtisadi, həm də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndiyini vurğulayıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri C.Qurbanov çıxışında blok qatarları ilə yüklərin çatdırılma müddətinin qısaldılması istiqamətində görülən işlərdən, dəmir yolunda aparılan islahatlardan danışıb. Əlverişli coğrafi mövqeyə malik, "Böyük İpək Yolu"nun üzərində yerləşən Azərbaycanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas iştirakçısı olduğunu qeyd edib. O, ölkəmizin üzərindən keçən yüklərin həcminin daha da artması istiqamətində atılan addımlardan söz açıb.

Sian şəhəri Xalq hökumətinin vitse-meri Q.Qao isə Sian-Bakı blok qatarının Azərbaycan və Çin şirkətlərinin işinə böyük töhfə verəcəyini deyib. "Ötən il Siandan Avropaya 1300-dən çox qatar yola salınıb, bu isə milyardlarla dollar gəlir deməkdir. Bu gün Siandan Bakıya gələn qatar reysi ümumilikdə Çindən Avropaya gedən 13-cü marşrut yoludur. Ümid edirik ki, çinli və azərbaycanlı biznesmenlər yaradılmış bu şəraitdən yararlana biləcəklər. İnanırıq ki, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlığımız daha da genişlənəcək. Sian-Bakı qatar yolu bu istiqamətdə atılan vacib addımlardan hesab edilə bilər", - deyə Q.Qao bildirib.

Sian-Bakı ilk blok qatarı 21 ədəd 45 futluq və 15 ədəd 40 futluq konteynerdən ibarətdir.

# Gənc dənizçilərin peşəkarlığının artırılmasında veteranların rolu əvəzedilməzdir



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasında veteran əməkdaşlarla görüş keçirilib.***

Görüşdə XDND-nin rəisi Taqət Qurbanov bildirib ki, dənizçi veteranların təcrübəsinə, bilik və bacarıqlarına hər zaman ehtiyac var. Gənc nəslin peşəkarlığının artırılmasında onların rolu əvəzedilməzdir.

Taqət Qurbanov qeyd edib ki, veteranların donanma üçün gördükləri işlər heç vaxt unudulmur, təcrübələri və bilikləri ilə Azərbaycan dənizçiliyinin fəxridirlər.

Hazırda ölkəmizdə müasir tələblərə uyğun gəmiçilik sisteminin mövcud olduğunu deyən veteranlar bundan qürur duyduqlarını dilə gətiriblər. Onlar tədbirin təşəbbüskarları və təşkilatçılarına minnətdarlıq edib, gələcəkdə də belə görüşlərin mütəmadi keçirilməsini arzulayıblar.

Tədbirin sonunda veteran dənizçilərə hədiyyələr təqdim edilib.

# ADDA-nın tələbələri "BUE Caspian"-ın gəmilərində təcrübə keçəcəklər



***Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri "BUE Caspian" şirkətinin gəmilərində istehsalat təcrübəsi keçəcəklər.***

Təcrübə haqqında ümumi məlumat və təhlükəsizlik qaydaları ilə tanışlıq məqsədilə şirkətin ofisində tələbələrlə görüş təşkil edilib.

Şirkətin regional direktoru Filip Çamberleyn dünyanın qabacıl şirkətlərindən olan "Topaz Marine"-nin nüfuzundan söz açıb, əsasən Orta Şərqdə və Xəzər dənizində neft-qaz hasilatı ilə bağlı əməliyyatların təmin edilməsi üçün dəniz nəqliyyatı xidmətləri göstərdiklərini gələcəyin dənizçilərinin diqqətinə çatdırıb.

# Türkiyə sularında ABŞ bayrağı ilə üzən qayıqda yanğın olub





***Türkiyənin Muğla vilayətinin Fethiye rayonunun sahil sularında ABŞ bayrağı ilə üzən yelkənli və motorlu qayıqda yanğın baş verib.***

Türkiyə KİV-lərinin verdiyi xəbərə görə, yanğın "Delmar" adlı 21 metr uzunluqlu qayığın mühərrikindən başlayıb. Ərazidəki yanğınsöndürən qayıqların da müdaxiləsi sayəsində alov söndürülüb. Yanğının ətrafdakı qayıqlara keçməsinin qarşısı alınıb.

***Sabir Şahtaxtı***

# Fəxri fərmanlar sahiblərinə təqdim edilib










***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) sədri Rauf Vəliyevin əmrinə əsasən “Dənizçi Günü” ilə bağlı istehsalat tapşırıqlarının yerinə yetirilməsində yüksək nəticələr göstərən, dəniz nəqliyyatının inkişafında əmək sərf edən və mühüm nailiyyətlər qazanan bir qrup əməkdaş Fəxri fərmana layiq görülüb. Bu günlərdə Fəxri fərmanlar sahiblərinə təqdim edilib.***

Təltifetmə mərasimində çıxış edən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC sədrinin birinci müavini Mübariz Cabbarov bildirib ki, Azərbaycanda dənizçilik sahəsinin inkişafı Ümumilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər yeni gəmilərin alınmasını, dənizçilərin sosial rifahının daha da yaxşılaşdırılmasını, peşəkar dənizçi kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlayırdı. Hazırda bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yükdaşımalarda, neft-qaz layihələrində iştirak edən müasir tipli gəmilərin alınması, gəmilərin uğurla reallaşan tikintisi, xarici sularda yeni gəmilərin istismara verilməsi kimi görülən işlər bunun bariz sübutudur.

Daha sonra Fəxri fərmanlar sahiblərinə təqdim olunub, onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Dənizçilər əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirib, göstərilən etimadı əməli işləri ilə doğruldacaqlarını, ölkənin tərəqqisi, dəniz nəqliyyatının inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini söyləyiblər.

# UNESKO-nun Hökumətlərarası Okeanoqrafiya Komissiyasının 30-cu sessiyası keçirilib

***İyunun 26-dan iyulun 4-dək Parisdə UNESKO-nun Hökumətlərarası Okeanoqrafiya Komissiyasının 30-cu sessiyası keçirilib.***

Komissiyanın saytı xəbər verir ki, dünyanın 150 ölkəsinin, o cümlədən Azərbaycanın üzv olduğu bu təşkilatın komitə iclaslarında okeanlar və dənizlərdə ekologiya, naviqasiya, su hövzələrinin təbii ehtiyatlarının qorunması, iqlim dəyişiklikləri və s. məsələlər üzrə elmi məruzələr təqdim olunub.

Komissiyanın İcraiyyə Komitəsi UNESKO-nun 40-cı Baş Konfransına təqdim etmək üçün fəaliyyət planını təsdiq edib.




Sessiyanın son günü UNESKO-nun Hökumətlərarası Okeanoqrafiya Komissiyasının İcraiyyə Komitəsinin 40 nəfərdən ibarət üzvləri seçilib. Onların arasında Türkiyənin adı da var. Türkiyə Xarici İşlər Nazirliyi bununla bağlı məlumat yayıb.

Azərbaycan 1998-ci ilin yanvarından UNESKO-nun Hökumətlərarası Okeanoqrafiya Komissiyasının üzvüdür.

# Gəmidə olan balıqçılardan 47 nəfəri itkin düşüb




***Honduras sahillərində nəhəng balıqçı gəmisinin batması nəticəsində 26 nəfər ölüb. Bu məlumatı BBC telekanalı bu ölkənin rəsmilərinə istinadla yayıb. Qeyd olunub ki, gəmidə olan balıqçılardan 47 nəfəri itkin düşüb.***

Hondurasın şərqindəki Mosqvita regionunda, Karib sahillərində itkin düşmüş şəxslərin axtarışı davam edir. Bildirilir ki, hökumətin balıq ovuna məhdudiyyətləri aradan qaldırmasından sonra böyük bir heyət 70 tonluq balıqçı gəmisində dənizə çıxıb. İnsidentin səbəbi məlum deyil. Hondurasın hüquq-mühafizə orqanları qəzanın səbəblərini araşdırırlar.

Axtarış-əməliyyat işlərinə cəlb olunmuş Honduras ordusunun sözçüsü Xose Meza AFP xəbər agentliyinə bildirib ki, ölənlərin cəsədləri və sağ qalanlar yaxınlıqdakı Puerto Lempira şəhərinin xəstəxanasına çatdırılıb. Onun sözlərinə görə, ötən həftə həmin yerdə daha bir gəmi batıb. Həmin insident zamanı 40 nəfər xilas edilib və ölüm halları olmayıb.

# Göyərtəsində qeyri-leqal miqrantların olduğu gəmi Aralıq dənizində çevrilərək batıb

***Göyərtəsində 86 qeyri-leqal miqrantın olduğu gəmi Aralıq dənizinin Tunis sahillərində çevrilərək batıb.***

Bu barədə Assosiated Press agentliyi Beynəlxalq Miqrasiya Təşkilatına istinadla məlumat yayıb. Təşkilatın Tunisdəki missiyasının rəhbəri Loren Landonun sözlərinə görə, gəmidəki 82 nəfər indiyədək itkin düşmüş sayılır.



Qəzaya uğramış gəmini görən balıqçılar sudan dörd nəfəri çıxara biliblər. Sonradan onlardan biri ölüb, digər üç nəfər xəstəxanaya aparılıb.

Agentlik qeyd edir ki, gəmi Tunisin cənubundakı Zarziz şəhəri yaxınlığında batıb.

Bu ilin mayında Tunis sahillərində Liviyadan Avropaya gedən digər bir miqrant gəmisi qəzaya uğramışdı. O vaxt 65 nəfər həlak olmuşdu.

# “Grace 1” tankerinin Suriyaya xam neft nəqli əngəllənib

***Böyük Britaniyaya məxsus olan və İspaniyanın cənubunda yerləşən Cəbəllütariq muxtar hökumətində bir tankerin Suriyaya xam neft nəqli əngəllənib.***

Xarici KİV-lər xəbər verir ki, hökumət qüvvələri nefti Suriyaya çatdıracağından şübhələndikləri tankeri saxlayıb və yük nəzarətə götürülüb. “Grace 1” tankeri Avropa İttifaqının (Aİ) Suriyaya tətbiq etdiyi sanksiyaları pozduğuna görə saxlanılıb.

Xatırladaq ki, Aİ 2011-ci ilin sonunda Suriyaya qarşı sanksiya qərarı qəbul edib və neft embarqosu daxil olmaqla sanksiyaların müddəti 2020-ci il iyunun 1-dək uzadılıb.

# Azərbaycan ilə Rusiya arasında Xəzər dənizi məsələlərinə dair ikitərəfli məsləhətləşmələr aparılıb

***İyulun 4-də Moskva şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizi məsələlərinə dair ikitərəfli məsləhətləşmələr keçirilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***

İclasda ölkəmizi Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, Rusiya tərəfini Rusiya Federasiyası Prezidentinin MDB İştirakçı-Dövlətləri ilə sərhədlərin delimitasiyası və demarkasiyası üzrə xüsusi nümayəndəsi, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri İqor Bratçikov təmsil edib.

Məsləhətləşmələr zamanı tərəflər arasında Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclasının gündəliyində duran məsələlərlə bağlı müzakirələr baş tutub və Xəzər dənizində düz çıxış xətlərinin müəyyən olunması metodikası haqqında Saziş layihəsində açıq qalan məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Həmçinin məsləhətləşmələr çərçivəsində Xarici İşlər nazirinin müavini X.Xələfov ilə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin MDB ölkələri 4-cü Departamentinin direktoru Denis Qonçar arasında görüş keçirilib.

Görüşdə Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakter daşıdığı bildirilib, ikitərəfli əlaqələrin inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Ölkələrimiz arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə edilib və əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq kəsb edən digər mövzular da müzakirə olunub.

# Bütün dünyada əməkçi insanların əksəriyyəti dilənçi vəziyyətindən çıxa bilmir

***Ən aşağı maaş müqabilində işləyən 650 milyon insan bütün əməkçilərin ümumi sayının 20 faizini təşkil edir. Onların məcmu əməkhaqqı dünya üzrə ödənilən əməkhaqqının 1 faizindən də azdır. Eyni zamanda dünyada bütün əməkçilərə ödənilən gəlirlərin təqribən yarısı ən yüksək maaşlı 10 faiz işçinin payına düşür.***

Bu məlumatlar Beynəlxalq Əmək Təşkilatının (BƏT) yeni məruzəsində əks olunub.

Məruzə müəllifləri qeyd edirlər ki, işləyən insanların gəlirlərində qlobal səviyyədə qeyri-bərabərlik 2004-cü ildən bəri bir qədər azalıb. Lakin milli səviyyədə, xüsusən, iqtisadi cəhətdən inkişaf etməkdə olan Çin və Hindistan kimi böyük ölkələrdə bu fərq artmaqdadır.

Bütün dünyada əməkçi insanların əksəriyyəti çox aşağı məvacib alır. Onların çoxu dilənçi vəziyyətindən çıxa bilmir. Ümumiyyətlə əməkçilərin 50 faizinin məcmu əməkhaqqı dünya üzrə ödənilən bütün əməkhaqqının cəmi 6,4 faizini təşkil edir.

Dünyada işçilərin yarısının orta əməkhaqqı ayda cəmi 198 dollara bərabərdir. Ən yoxsul əməkçilərin 10 faizi hazırda ən varlı əməkçilərin 10 faizinin bir ildə aldığı qədər qazanmaq üçün üç əsrdən çox işləməlidir.

BƏT-in yeni məruzəsindən irəli gələn əsas nəticələrdən biri ondan ibarətdir ki, yüksək məvaciblik işçilərin gəlirlərinin artması orta və aşağı əməkhaqqı alan işçilərin gəlirlərinin azalması ilə müşayiət olunur.

# “Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir”

***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-lərə xüsusi açıqlama verib.***

Açıqlamada deyilir:

- Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb. Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər. Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan



bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl “qəhrəman” kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır. Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar. Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belə olan halda, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?...

Ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni, Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub. Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi “ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər. Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy " nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb. Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə, terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, ideoloji təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir. İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir.

# “AXDG” QSC-nin sədri Rauf Vəliyev qeyri-rəsmi formatda gənc dənizçilərlə görüşüb

***Gənclərə diqqət və qayğı, onların karyera yüksəlişi məsələləri ASCO-nun başlıca fəaliyyət istiqamətlərindəndir. Gənc kadrların hazırlanması, onların xarici ölkələrin aparıcı dənizçilik universitetlərində təhsil alması, ADDA-da oxuyan tələbələrin stimullaşdırılması “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (ASCO) rəhbərliyinin daim diqqət mərkəzindədir.***

“AXDG” QSC-nin sədri Rauf Vəliyevin səhər yeməyi süfrəsi arxasında səmimi şəraitdə şirkətin müxtəlif strukturlarında çalışan gənc əməkdaşlar və gələcəyin dənizçiləri ilə keçirdiyi görüş də bu gözəl marama xidmət edən tədbirlərdən idi.

Rauf Vəliyev öncə Ümummilli Lider Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan, hazırda Prezident İlham Əliyevin ölkədə gənclərin öz imkan və bacarıqlarını inkişaf etdirmələri üçün yaratdığı şəraitdən danışıb. Bildirib ki, bütün sahələrdə olduğu kimi Prezident İlham Əliyev dənizçiləri, onların həyat səviyyələrinin daha da yaxşılaşmasını da daim xüsusi diqqətdə saxlayır, mütəmadi tapşırıqlar verir, dənizçilik sahəsinin inkişafına yönələn təşəbbüsləri dəstəkləyir.

Sədr gənc dənizçi mütəxəssislərinin yetişdirilməsi üçün ASCO-da həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. Əlavə edib ki, istedadlı və perspektivli gənclər hər zaman ASCO sıralarında öz yerlərini tuta bilirlər.

Rauf Vəliyev gənclərə tövsiyələrini də verib. Bildirib ki, uğur əldə etmək üçün hər kəs öz üzərində davamlı çalışmalı, daha çox oxumalı, vicdanlı və sədaqətli olmalıdır.

Qeyri-rəsmi formada keçən görüşdə gənclər onları düşündürən suallarla müraciət ediblər. Suallar əsasən ASCO-nun kadr siyasəti, tədris və istehsalat təcrübələrinin təşkili, sosial problemlərin həlli, donanmanın yeniləşdirilməsi, tələbələrin işlə təminatı və s. məsələlər ətrafında olub. Bütün sualları ASCO-nun rəhbərliyi ətraflı cavablandırıb. Qeyd olunub ki, gələcəkdə də bu formatda görüşlər təşkil ediləcək.









## İnkişaf etmiş və varlı ölkələr qaçqın probleminin həllinə daha çox kömək etməlidirlər



***BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının hesabatında bildirilir ki, 2020-ci ildə hazırda 60 ölkədə yerləşmiş1,4 milyon qaçqının köçürülməsinə ehtiyac yaranacaq. Bu səbəbdən ailələrindən ayrı düşmüş həmin insanlara kömək etmək üçün dünya ölkələrinə müraciət olunub.***

BMT-nin saytı xəbər verir ki, köçürülməyə möhtac olan qaçqınların 70 faizi zorakılıq və işgəncə halları ilə üzləşib. Onların 40 faizi Suriya, 14 faizi Cənubi Sudan və 11 faizi Konqo Demokratik Respublikası vətəndaşlarıdır. Bundan başqa, Türkiyə ərazisində məskunlaşmış 3,7 milyon qaçqının da 420 mini ailələri ilə birləşmək üçün köçürülməyə möhtacdır.

Hesabatda qeyd olunur ki, qaçqınların yerləşdirilməsi məsələsi getdikcə daha da kəskinləşir. Belə ki, bütün dünya üzrə 70,8 milyon insan öz evlərini tərk etməyə məcbur olub. Onlardan təqribən 26 milyonu isə qaçqınlardır. BMT-nin qaçqınların işi üzrə Ali Komissarı Filippo Qrandi bildirib ki, müharibələr, silahlı münaqişələr və təqibdən qaçan insanların sayının rekord səviyyəyə çatdığını nəzərə alaraq, indi ölkələrin daha çox qaçqına yer verməsi aktual problemə çevrilib. Onun sözlərinə görə, qaçqınların 84 faizi inkişaf etməkdə olan ölkələrdə məskunlaşıblar, amma həmin ölkələrin özləri böyük iqtisadi və sosial problemlərlə qarşılaşıblar. BMT-nin Ali Komissarı hesab edir ki, inkişaf etmiş və varlı ölkələr bu problemin həllinə daha çox kömək etməlidirlər.

# Xəzəryanı bölgənin gələcək taleyi bu gün Xəzəryanı dövlətlərin hakimiyyət orqanları tərəfindən qəbul edilən qərarlardan asılıdır

***Son vaxtlar Rusiyanın elmi və siyasi ictimaiyyəti Xəzəryanı bölgənin sosial, ekoloji və kulturoloji problemlərinə xüsusi diqqət yetirir. Bu istiqamətdə araşdırmaların fəallaşdırılması, ümdə problemlərin həllinin səmərəli mexanizmlərinin müəyyən edilməsi məsələləri müxtəlif səviyyələrdə müzakirə olunur. Bu baxımdan, RF Dövlət Dumasının, onun Elm və Təhsil Komitəsinin, habelə Millətlərarası və Regionlararası Münasibətlər üzrə İşçi Qrupun fəaliyyəti diqqətəlayiqdir.***

2019-cu il mayın 28-30-da bu qurumların iştirakı və dəstəyi ilə Elista şəhərində B.B.Qorodovikov adına Kalmık Dövlət Universiteti bazasında Xəzəryanı ölkələrin Dövlət Universitetləri Assosiasiyası tərəfindən təşkil olunmuş genişmiqyaslı beynəlxalq elmi-praktiki konfrans keçirilib.

İyunun 13-də Dövlət Dumasının Elm və Təhsil Komitəsinin Ekspert Şurasında və Dövlət Dumasının Millətlərarası və Regionlararası Münasibətlər üzrə İşçi Qrupunda həmin konfransın qərarları dinlənilib, Rusiya Federasiyasının reallıqları nəzərə alınmaqla bu qərarlar dəqiqləşdirilib. Cari ilin payızında M.V.Lomonosov adına MDU yanında Asiya və Afrika ölkələri İnstitutunun bazasında “Xəzər - Böyük İpək Yolunun qızıl halqasıdır” mövzusunda dəyirmi masa keçirilməsi nəzərdə tutulur.

Dumada keçirilən dinləmələrdə 70 nəfər iştirak edib. İclası Dövlət Dumasının deputatı, Elm və Təhsil Komitəsi sədrinin müavini Boris Çernışov açıb. Əsas məruzə ilə fəlsəfə elmləri doktoru, RF Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət



Xidməti Akademiyasının professoru, Rusiya Ekologiya Akademiyasının və Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, UNESCO-nun eksperti Nizami Məmmədov çıxış edib.

Müzakirələrdə Davamlı İnkişaf və Ətraf Mühitin Sağlamlığı Mərkəzinin rəhbəri Vladimir Zaxarov, Rusiya Təhsil Akademiyasının akademiki Viktor Dronov, Moskva Dövlət Mülki Aviasiya Texniki Universitetinin dosenti Tatyana Naumova, Rusiya Ekologiya Akademiyasının həqiqi üzvü, M.V.Lomonosov adına MDU-nun professoru Aleksandr Çumakov, regionların sosial-iqtisadi inkişafına kömək üzrə “Avrasiya İnvestisiya İttifaqı”nın prezidenti Sergey Latışev, “Mospriroda” Dövlət Təbiəti Mühafizə Büdcə Müəssisəsinin “Vorobyovı Qorı” ekologiya və maarifləndirmə mərkəzinin rəisi Yekaterina Kolesova və başqaları iştirak ediblər.

Dövlət Dumasının Təhsil və Elm Komitəsinin Ekspert Şurası sədrinin müavini Kamiljan Kalandarov dinləmərə yekun vurub.

Çıxışların ümumiləşdirilməsi əsasında yekdilliklə qətnamə qəbul edilib. Bu sənədin aşağıdakı müddəaları xüsusilə diqqətəlayiqdir:

1. Xəzər fundamental biosferə malik olan və xüsusi geosiyasi əhəmiyyət kəsb edən nadir təbii qurumdur. Xəzəryanı bölgənin gələcək taleyi bu gün Rusiyanın federal və regional hakimiyyət orqanları, digər Xəzəryanı dövlətlərin hakimiyyət orqanları tərəfindən qəbul edilən qərarlardan asılıdır. Bu diyarda yaşayan milyonlarla insan ümid edir ki, bu böyük tarixi-coğrafi ərazi əməkdaşlıq zonası, Şimal və Cənub, Qərb və Şərq arasında ticarət yollarının qovuşuğu kimi qalacaq, münaqişə zonasına çevrilməyəcək.

2. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya əsasında Xəzəryanı ölkələrin ekoloji, Sosial, iqtisadi və kulturoloji problemlərinin həlli üçün Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan arasında ən müxtəlif sahələrdə intensiv beynəlxalq əməkdaşlığın genişləndirilməsi zəruridir.

3. Müasir dövrdə aşağıda sadalanan məsələlər xüsusilə aktualdır:

- Xəzəryanı bölgə əhalisinin həyat səviyyəsinin və yaşayış keyfiyyətinin yüksəldilməsinə yönəlmiş beynəlxalq proqramların işlənib hazırlanması;
- bioresursların və karbohidrogen xammalının (neft, qaz) istismarının və istismar formasının optimal nisbətinin müəyyən edilməsi;
- yaşayış məntəqələrini və geniş əraziləri Xəzər dənizinin səviyyəsinin dəyişmələrindən qoruyan sahil qurğuları ucaldılmasının səmərəli texnologiyalarının işlənib hazırlanması;
- Xəzəryanı bölgənin vahid bioekoloji və sosial-ekoloji monitorinqlərinin keçirilməsi;
- Xəzəryanı bölgənin təbii şəraiti üçün məqbul olan kənd təsərrüfatının və aqrar istehsalın inkişafı;
- Xəzərdə sərnişin, kommersiya, balıq ovu gəmiçiliyinin inkişafı, müasir texniki (aerokosmik, informasiya) vasitələr əsasında onların təhlükəsizliyinin təmin edilməsi;
- Xəzəryanı ölkələr arasında mədəniyyətlərarası və humanitar kommunikasiyaların güclənditirilməsi;
- regionun təbii və mədəni xüsusiyyətləri nəzərə alınmaqla ekoloji maarifləndirmə tədbirlərinin və fasiləsiz ekoloji təhsilin genişləndirilməsi.

4. Xəzəryanı bölgənin davamlı inkişafa keçməsi ilə bağlı ekoloji, iqtisadi, sosial, kulturoloji və siyasi məsələlərin həllində ekspert-əlaqələndirmə funksiyalarının yerinə yetirilməsi üçün B.B.Qorodovikov adına Kalmık Dövlət Universiteti bazasında Xəzəryanı ölkələrin sosial-ekoloji problemləri üzrə Beynəlxalq Ekspert Şurası yaradılması məqsədəuyğun hesab edilsin.

5. Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan hökumətlərindən, bu ölkələrin elmi və siyasi ictimaiyyətindən Şuranın heyətinə bu ölkələrin hərəsindən 2-3 nümayəndə (Xəzər problemləri üzrə tanınmış alim və mütəxəssislər) göndərilməsi xahiş edilsin.

6. Xəzəryanı ölkələrin sosial-ekoloji problemləri üzrə Beynəlxalq Ekspert Şurasının illik iclasları, planlaşdırılan konfranslar, dəyirmi masalar və digər tədbirlər haqqında Xəzəryanı ölkələrə mütəmadi olaraq məlumat verilsin.

7. Xəzəryanı ölkələrin sosial-ekoloji problemləri üzrə Beynəlxalq Ekspert Şurasının layihələrinin vaxtında və operativ işıqlandırılması üçün Rusiya Jurnalistlər İttifaqının dəstəyi ilə ekoloji siyasəti açıqlayan, ekoloji maarifi inkişaf etdirən, Xəzər dənizinin bioloji müxtəlifliyinin qorunub saxlanmasına kömək edən jurnalistlərin və bloqerlərin ittifaqı yaradılsın.

8. Xəzəryanı ölkələrin beynəlxalq ekoloji informasiya agentliyinin, ”Mir” Dövlətlərarası Teleradio Şirkəti çərçivəsində “Xəzər dialoqu” adlı müntəzəm televiziya verilişinin yaradılmasının mümkünlüyü məsələsinə baxılsın.

***Fəridə Abdullayeva***

# TAP boru kəmərinin genişləndirilməsi imkanları araşdırılır

***Azərbaycan təbii qazını Avropaya nəql edəcək “Trans-Adriatik” (TAP) boru kəməri üzrə bazar sınaqlarına (market test) başlanılıb.***

Boru kəmərinin operatoru olan TAP AG şirkəti xəbər verir ki, TAP konsorsiunu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

TAP-ın icraçı direktoru Luca Schieppati deyib: “TAP 2020-ci ildən etibarən ilkin olaraq ildə təxminən 10 milyard kubmetr təbii qazı nəql etməyi planlaşdırır və Avropaya yeni bir qaz mənbəyi gətirir. Buna baxmayaraq, TAP öz ötürücülük gücünü ildə 20 milyard kubmetrə çatdırmaq imkanına malikdir. Hazırda layihə üzrə işlərin 88 faizdən çoxunun icra olunduğunu nəzərə alaraq boru kəmərinin Avropaya qaz nəqli üçün gələcək tələbata uyğun olaraq genişləndirilməsini təmin etmək niyyətindəyik. Bu, əlavə qaz ehtiyatlarının Avropa bazarına çatdırılması üçün böyük fürsətdir”.

Qeyd edək ki, TAP Avropa Komissiyasının Ümumi Maraq Layihələrinin (PCI) siyahısına daxil edilib.

Layihə qrafikə uyğun davam edir. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa edilir. Layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88 faizdən çoxu icra olunub.

TAP-ın inşası çərçivəsində Albaniya sularında dəniz borularının tikintisi başa çatıb. Boru kəmərinin dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın “Saipem” şirkəti bu əməliyyatlar üçün “Castoro 10” gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb. Uzunluğu 139 metr və eni 36 metr olan “Castoro 10” gəmisi boruları Albaniyanın dayaz sularında döşəyib, bunun ardından fiber-optik kabelin çəkilişi də həyata keçirilib.

TAP ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlamışdı. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. “Saipem” dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 20 faizdən çoxu icra olunub.

Boru kəmərinin Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisinin 85 faizdən çoxu tamamlanıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə “Siemens” şirkəti tərəfindən istehsal edilib.



İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, “Şahdəniz-2”dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP “Snam Rete Gas” şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), “Snam S.p.A.” (20 faiz), “Fluxys” (19 faiz), “Enagás” (16 faiz) və “Axpo” (5 faiz).

# Tacikistandan ixrac və idxal edilən yüklərin Kurık-Ələt-Kurık istiqamətində ASCO-nun gəmi-bərələri ilə daşınması müzakirə olunub





***Düşənbə şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin dəmir yolu rəhbərlərinin 14-cü və İƏT-in Tranzit Nəqliyyat Koordinasiya Şurasının (TTCC) Dəmir Yolu Komitəsinin 8-ci iclası keçirilib.***

Tədbirə Tacikistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Pakistan və İran İslam Respublikaları, Çin Xalq Respublikası, eləcə də İslam İnkişaf Bankı (İİB), Dəmir yolu ilə Beynəlxalq Yük Daşımaları üzrə Hökumətlərarası Təşkilat (OTİF), Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE), BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) və İqtisadi Əməkdaşlıq Təşkilatının Ticarət və İnkişaf Bankının (ECO-TDB) nümayəndə heyətləri qatılıblar.

İclasda dəniz nəqliyyatı ilə tranzit yükdaşımalar da daxil olmaqla, multimodal daşımalar sahəsində əməkdaşlıq məsələləri də nəzərdən keçirilib.

İki gün davam edən tədbirdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-ni (ASCO) İstismar-Kommersiya departamentinin əməkdaşı Niyaməddin Aslanov təmsil edib.

Tədbir çərçivəsində Tacikistan Respublikası dəmiryolu şirkətinin rəisi Mirzoali Komilin təşəbbüsü ilə Niyaməddin Aslanov arasında ikitərəfli görüş də baş tutub. Görüşdə ASCO və Tacikistan dəmiryolları arasında gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tacikistan Respublikasından ixrac və idxal edilən yüklərin Kurık-Ələt-Kurık istiqamətində ASCO-ya məxsus bərə gəmi-bərələrlə daşınması müzakirə edilib.

Mirzoali Komil görüşün səmərəli olduğunu, aparılan müzakirələrin şirkətlər arasında əlaqələrinin genişləndirilməsində əhəmiyyətli olacağını vurğulayıb.

# Qazaxıstanda Xəzərin məsələləri üzrə yeni xüsusi nümayəndə təyin edilib

***Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin sərəncamı ilə Zülfiyə Amanjolova bu ölkənin Xəzərin məsələləri üzrə yeni xüsusi nümayəndəsi təyin edilib.***




Kazinform informasiya agentliyi xəbər verir ki, Zülfiyə Amanjolova bundan əvvəl Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri olub. O, bu vəzifədə dövlət sərhədləri və Xəzər dənizinin statusunun müəyyən edilməsi məsələləri ilə məşğul olub. Zülfiyə Amanjolova dəfələrlə mətbuata Xəzərin statusuna dair Konvensiya, habelə Birgə özbək-qazax demarkasiya komissiyasının fəaliyyəti ilə bağlı açıqlamalar verib.

Zülfiyə Amanjolova peşəkar diplomatdır və uzun müddət Qazaxıstan XİN-in beynəlxalq hüquq departamentinə rəhbərlik edib.

# "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə dördtərəfli işçi qrupunun ilk iclası olub

***Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan, Türkmənistan, Gürcüstan və Rumıniya arasında "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə yaradılması planlaşdırılan dördtərəfli işçi qrupunun ilk iclası keçirilib.***



Dövlət Gömrük Komitəsinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, görüşdə Dövlət Gömrük Komitəsi, Xarici İşlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, o cümlədən Türkmənistan, Gürcüstan və Rumıniyanın aidiyyəti qurumlarının nümayəndələri iştirak edib. İclasda "Xəzər Dənizi - Qara Dəniz beynəlxalq nəqliyyat marşrutu" layihəsi çərçivəsində regional olaraq dəhlizlərin və infrastrukturun inkişafı, prosedurların, eləcə də tariflərin, visa xidmətlərinin, ödəmə metodlarının sadələşdirilməsi istiqamətində məsələlər müzakirə edilib.

Tədbirdə Azərbaycan ekspertlər qrupunun rəhbəri qismində çıxış edən Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov gömrük sistemində həyata keçirilən son islahatlar barəsində geniş məlumat verib. Bildirilib ki, "Yaşıl Dəhliz" konsepsiyası, "Bir pəncərə" prinsipi, elektron bəyanetmə, qısa idxal bəyannaməsinin təqdimi istiqamətində görülən işlərin "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" layihəsi kontekstində prosedurların sadələşdirilməsi, tranzit rəqabətqabiliyyətliliyinin artırılması və ümumilikdə ticarətin asanlaşdırılmasında mühüm rol oynacaq.

Baş İdarə rəisi Dövlət Gömrük Komitəsinin Maersk və IBM şirkəti tərəfindən birgə işlənib hazırlanmış, blokçeyn texnologiyasına əsaslanan təchizat zənciri platforması olan "TradeLens"ə qoşulması barədə də iclas iştirakçılarını məlumatlandırıb.

S.Qaralov Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin (NCTS) tətbiqi və "CAREC" proqramı çərçivəsində Azərbaycan, Qazaxıstan və Gürcüstanın iştirakı ilə elektron tranzit prosedurlarının tətbiqini nəzərdə tutan layihələr barədə də danışıb.

Qeyd edilib ki, bu kimi islahatlar sərhəd idarəçiliyi mexanizminin təkmilləşdirilməsi və gömrük nəzarətinin səmərəliliyinin artırılmasına əlverişli şərait yaratmaqla yanaşı, malların və nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrindən sürətli keçidinin təmin edilməsində əvəzsiz rol oynayacaq.

Tədbirdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Avropa strukturları Xəzər dənizi-Qara dəniz marşrutunun inkişafında maraqlıdırlar

***Avropa strukturları Türkmənistan, Azərbaycan, Gürcüstan və Rumıniyanın iştirak etdiyi Xəzər dənizi-Qara dəniz marşrutunun inkişafında maraqlıdırlar.***



Bunu Türkmənistan Sənaye və Kommunikasiya Nazirliyinin "Türkmənistan avtomobil nəqliyyatı" agentliyinin sədri Orazgəldi Suxanov bəyan edib.

Region ölkələri arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişafından bəhs edən O.Suxanov Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə uğurla həyata keçirilmiş Lapis Lazuli multimodal nəqliyyat marşrutunu xatırladıb. O, həmçinin yeni nəqliyyat marşrutu – Xəzər dənizi-Qara dəniz layihəsinin reallaşması barədə məlumat verib. Yeni dəniz marşrutunun perspektivindən danışan Türkmənistan rəsmisi bu dəhlizin Avropa və Asiya ölkələri arasında əlaqələrin inkişafında əhəmiyyətini, onun bu yaxınlarda Avropa İttifaqının qəbul etdiyi Mərkəzi Asiya üçün Strategiyada rolunu qeyd edib.

Xatırladaq ki, bu günlərdə Buxarestdə keçirilən Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu üzrə ekspert işçi qrupunun dördtərəfli görüşündə nümayəndə heyətlərinin üzvləri marşrut boyu bu ölkələrdəki nəqliyyat infrastrukturu ilə bağlı, həmçinin onun genişləndirilməsi perspektivlərinə dair informasiya mübadiləsi aparıblar. Xəzər dənizi-Qara dəniz dəhlizinin fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılmasına kömək edəcək milli səviyyədə normativ-hüquq aktlarının hazırlanması və tətbiq edilməsi, habelə "Şərq-Qərb" istiqamətində iqtisadi əməkdaşlığın gücləndirilməsi məsələləri də müzakirə olunub.

# Dəhliz vasitəsilə daşınmış yüklərin 2 milyon 809,1 min tonunu tranzit yüklər təşkil edib

***2019-cu ilin yanvar-aprel aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 16 milyon 861,4 min ton, yük dövriyyəsi isə 3 milyard 603,6 milyon ton-kilometr olub.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 10 milyon 834,8 min tonu və ya 64,3 faizi avtomobil nəqliyyatı, 4 milyon 275,1 min tonu və ya 25,2 faizi dəmir yolu nəqliyyatı, 1 milyon 769,5 min tonu və ya 10,5 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 16,7 faizini və ya 2 milyon 809,1 min tonunu tranzit yüklər təşkil edib.

# Vergiödəyicisinin artıq ödənilmiş vəsaitləri geri qaytarıla bilər

***Vergi Məcəlləsində vergiödəyicilərinə verilmiş hüquqlardan biri də artıq ödənilmiş və ya tutulmuş vergi məbləğlərinin geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etməkdir. Bu hüquq yarandığı halda, vergiödəyicisi dərhal müvafiq vergi orqanına ərizə ilə müraciət etməklə artıq ödənilmiş vəsaitləri geri qaytara bilər.***

Vergilər Nazirliyinin İqtisadi təhlil departamentinin baş direktoru Natiq Şirinov vergiödəyicisinin səhvi ucbatından belə hallar baş verdikdə artıq ödənilmiş vəsaitin geri qaytarılması prosesinin Vergi Məcəlləsinin 87-ci maddəsinin tələblərinə əsaslanmalı olduğunu qeyd edib. Həmin maddəyə əsasən, vergiödəyicisi tərəfindən ərizə ilə vergi orqanlarına müraciət olunur və həmin vəsaitin qaytarılması 45 gün ərzində həyata keçirilir.

"Bundan başqa, artıq ödənilmiş vəsait vergiödəyicisinin öz istəyi ilə növbəti vergi öhdəliklərinin hesabına aid edilə bilər. Burada bir məqamı nəzərə çatdırmaq lazımdır ki, Vergi Məcəlləsinin 179-cu maddəsində, digər vergilərdən fərqli olaraq, əlavə dəyər vergisində (ƏDV) yaranmış artıq vəsaitlərin qaytarılması ilə bağlı xüsusi norma nəzərdə tutulub. Bu norma ondan ibarətdir ki, əgər ödəyicinin dövriyyəsinin 50 faizdən çoxu vergiyə sıfır dərəcə ilə cəlb olunursa, bu halda ƏDV-dən yaranmış əlavə ödəmə vergiödəyicisinin ərizəsi təqdim edildiyi tarixdən 20 gün ərzində, digər hallarda isə ərizə təqdim olunduğu tarixdən 20 gündə, digər hallarda isə ərizə təqdim olunduğu tarixdən 4 ay ərzində qaytarılır", - deyə o bildirib.

# Maddi yardım təhsil və müalicə haqlarını ödəmək üçün verildikdə vergidən azaddır

***Büdcə təşkilatında çalışan işçiyə verilən maddi yardımdan vergi tutulmalıdırmı?***

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən verilən məlumata görə, işəgötürən tərəfindən öz işçilərinə verilən maddi yardım Vergi Məcəlləsinin 102.1.3-cü maddəsinin müddəalarına uyğun olaraq təhsil və ya müalicə haqlarını ödəmək üçün verildiyi halda, həmin maddi yardımın 1000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün verildiyi halda isə 2000 manatadək olan hissəsi gəlir vergisindən azaddır. İşəgötürən tərəfindən işçilərinə verilən maddi yardımın bu maddə ilə müəyyən edilmiş həddən yuxarı hissəsi işçinin vergi tutulan gəlirlərinə aid edilməklə ümumi qaydada gəlir vergisinə cəlb olunur.

# Xəzər İqtisadi Forumunun formatı Xəzər regionunun hüdudlarından çox kənara çıxacaq

***I Xəzər İqtisadi Forumunun formatı Xəzər regionunun hüdudlarından çox kənara çıxacaq.***




Türkmənistanın Xarici İşlər nazirinin müavini Berdiniyaz Matiyev bu sözləri Aşqabadda keçirilən beynəlxalq mediaforumda söyləyib. Mediaforum bu il avqustun 11-12-də Türkmənbaşı şəhərində - Avaza Milli Turizm Zonasında keçiriləcək I Xəzər İqtisadi Forumuna həsr edilib.

Berdiniyaz Matiyev I Xəzər İqtisadi Forumunun gündəliyindən söhbət açaraq bildirib ki, həmin tədbirdə Xəzəryanı ölkələrin hökumətlərinin iqtisadiyyat nazirlərinin, şirkətlərin və bankların, habelə forumda iştirak edəcəklərini təsdiqləmiş məşhur xarici şirkətlərin nümayəndələrinin iştirak edəcəyi gözlənilir.

Forumun işinin ilk günündə beynəlxalq Xəzər İnnovasiya Texnologiyaları sərgisinin açılışı olacaq.

Elə həmin gün Xəzəryanı ölkələrin iqtisadiyyat və nəqliyyat nazirlərinin görüşü, region dövlətlərinin sahibkarlarının görüşü keçiriləcək. Nümayəndə heyətlərinin ikitərəfli görüşləri də nəzərdə tutulub.

Avqustun 12-də "Xəzər dənizi: beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı" mövzusunda beynəlxalq konfransın açılışında Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak edəcək.

Konfrans "Xəzər regionunda ticari-iqtisadi əməkdaşlıq", "Xəzərdə nəqliyyat əməkdaşlığının perspektivləri", "Xəzər dənizinin enerji potensialı", "Xəzər regionunda sənayenin inkişafı", "Xəzər üçün yaşıl iqtisadiyyat", "Xəzərdə dəniz elmi araşdırmaları sahəsində əməkdaşlıq" sessiyaları üzrə təşkil ediləcək. İri layihələrin həyata keçirilməsi üçün şərait yaradılması məsələləri müzakirə olunacaq, Xəzər regionunun iqtisadiyyatının qlobal kontekstdə roluna dair diskussiya keçiriləcək, Xəzəryanı dövlətlərin iqtisadiyyatının neft-qaz, elektrik enerjisi, nəqliyyat, ticarət, aqrosənaye, turizm və digər sahələrində investisiya cəlbediciliyi mövzusu müzakirə ediləcək.

Mediaforumda Xəzər İqtisadi Forumunun https://cefavaza2019.gov.tm saytının təqdimatı keçirilib, Xəzər İqtisadi Forumunun əhəmiyyəti və perspektivləri barədə videofilm nümayiş etdirilib.

***Laçın Sultanova***

# Dərin sularda üzən atom sualtı gəmisində həlak olanlardan ikisi Rusiya Qəhrəmanı olub

***İyulun 1-də Rusiya Hərbi Dəniz Donanmasına məxsus dərin sularda üzən atom sualtı gəmisində yanğın baş verib.***



Yanğın nəticəsində 14 dənizçinin həlak olduğu sualtı gəmi tədqiqat və xilasetmə əməliyyatları ilə yanaşı, kəşfiyyat işləri də aparır.

Hadisə ilə əlaqədar Rusiya Prezidenti Vladimir Putin dənizçilərin ailələrinə başsağlığı verərək bildirib ki, həlak olanlardan yeddi nəfəri birinci dərəcəli kapitan, iki nəfəri isə Rusiya Qəhrəmanı olub.

Sualtı gəmidə yanğının başvermə səbəbləri hələlik məlum deyil. Peşəkar dairələrdə "Loşarik" adlanan "AC-12" gəmisi Rusiyada istehsal olunmuş qabaqcıl məxfi sualtı aparatlardan biridir. 1995-ci ildə istehsal olunmuş gəminin heyəti 25 nəfərdən ibarət olub. Sualtı gəmidə silah olmasa da o, sualtı minalar quraşdıra, kommunikasiyaları zədələyə bilir. Hazırda aparat Murmansk vilayətinin Severomork şəhərinə gətirilib.

# Aralıq dənizini keçməyə cəhd edən hər 45 qaçqından biri həyatını itirir

***BMT Ali komissarının Qaçqınların İşi üzrə İdarəsi Aralıq dənizini keçmək istəyən hər 45 qaçqından birinin boğularaq öldüyünü deyib.***



Bu barədə "Rheinische Post" qəzeti idarənin Almaniyadakı nümayəndəsi Dominik Barça istinadla məlumat yayıb.

"2015-ci ildə hər 269, bir il sonra hər 71 qaçqın və mühacirdən biri Aralıq dənizini keçməyə çalışarkən həlak olub. Bu il isə hər 45 nəfərdən biri dənizdə boğularaq ölüb", - deyə Dominik Barç bildirib.

BMT-nin məlumatına əsasən, ötən il 2277 nəfər, bu il isə 584 nəfər Avropaya keçməyə cəhd edərkən dənizdə bataraq həlak olub. Ümumilikdə isə 2015-ci ildən bəri Aralıq dənizində 14867 nəfər boğulub.

# Qocaman dənizçilər evlərində ziyarət olunub





***Ənənəyə sadiq qalaraq dənizçilər qocaman həmkarlarını evlərində ziyarət edirlər.***

Bu dəfə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasının İnsan Resursları Xidməti və Sosial inkişaf və nəqliyyat qrupunun əməkdaşları kapitan Mehdi Quliyev və bosman İsa İsmayılova baş çəkiblər.

Görüşdə həyatlarının böyük hissəsini dənizçiliyin inkişafına həsr etmiş əmək veteranlarının xidmətləri xatırlanıb, onların ömür yolunun gənc nəslə örnək olduğu bildirilib. Bundan başqa, çox sayda dənizçinin taleyində önəmli rol oynamış peşəkar dənizçilər yada salınıb.

Həmkarları qocaman dənizçilərə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbəri Rauf Vəliyev başda olmaqla, bütün dənizçilərin salamlarını çatdırıb, onlara cansağlığı, uzun ömür arzulayıblar.

Diqqət və qayğıya görə minnətdarlıq edən Mehdi Quliyev və İsa İsmayılov həmkarlarının qədirbilənliyinin onlara yüksək əhval-ruhiyyə bəxş etdiyini və yaşlı dənizçilərin evində ziyarət olunması ənənəsinin xoş olduğunu bildiriblər.

# Azad olunan dənizçilər öz istəkləri ilə fəaliyyətlərini davam etdirmək üçün çalışdıqları gəmiyə qayıdıblar




***Liviyada üsyançı general Hafterin qanunsuz fəaliyyət göstərən "polis" qrupları tərəfindən saxlanılan Türkiyə vətəndaşları azad olunublar.***

Məlumatı Türkiyə Xarici İşlər Nazirliyi (XİN) təsdiqləyib. Bildirilir ki, saxlanılan şəxslər Liviyadakı dənizçilik şirkətlərindən birində çalışan gəmiçilər olublar. Azad olunan şəxslər öz istəkləri ilə fəaliyyətlərini davam etdirmək üçün çalışdıqları gəmiyə qayıdıblar.

Qeyd edək ki, hadisə ilə əlaqədar Türkiyə XİN iyunun 30-da kəskin açıqlama vermişdi. Eyni zamanda, Türkiyənin güc strukturlarının rəhbərləri də hadisəyə ciddi reaksiya verərək xəbərdarlıq etmişdilər ki, əgər altı türkiyəli dərhal azad olunmasa general Hafterin dəstələrinə layiqli cavab veriləcək.

***Sabir Şahtaxtı***

# Xəzərin səviyyəsi üzrə müşahidələr dənizdə fəaliyyət göstərən neft-qaz əməliyyatları şirkətlərinə, dənizçilərə, limanlara fəaliyyətlərini vəziyyətə uyğun planlaşdırmağa imkan verir



***Xəzər dənizi qapalı hövzə olduğundan periodik olaraq səviyyə dəyişmələri baş verir. Dəniz səviyyəsinin dəyişməsində başlıca amil onun hövzəsinin iqlimi hesab olunur.***

Xəzərin su balansının əsasını təşkil edən çayların hövzələrində baş verən iqlim tərəddüdləri, yəni, azalıb-çoxalma, dəniz səthindən buxarlanma və s. amillər dənizdə səviyyənin artıb-azalmasına təsir göstərir.

Bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə jurnalistlərə açıqlamasında deyib.

Sonuncu dəfə ötən əsrin ikinci yarısında Xəzər dənizinin səviyyəsində müşahidə olunmuş qalxıb-enmələrin müvəqqəti xarakter daşıdığını deyən R.Səttarzadə bildirib: "1977-ci ildə dənizin səviyyəsi XX əsrdə müşahidə olunmuş ən aşağı həddə qədər azalıb. Sonradan qısa dövr ərzində, yəni, 1977-1995-ci illərdə səviyyə 2,5 metr artıb və sonrakı illərdə yenidən azalma müşahidə olunmağa başlayıb. Keçirilmiş monitorinqlərin nəticələrinə və aparılmış təhlillərə görə, hazırda səviyyə 1 metrdən çox aşağı düşüb. Bu sahəni tədqiq edən alimlərin fikrincə, Xəzər dənizinin səviyyəsinin artıb-azalmasını uzunmüddətli proqnoz etmək mümkün deyil. Çünki adətən bu proqnozlar bir müddət keçdikdən sonra özünü doğrultmur. Tərəfimizdən bu məsələyə xüsusi diqqət yetirilir və alimlərlə, mütəxəssislərlə müzakirələr aparılır. Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının alimləri ilə bu mövzuda növbəti görüş keçiriləcək".

Şöbə müdiri onu da qeyd edib ki, Milli Hidrometeorologiya Departamentinin hidrometeoroloji müşahidə məntəqələrində dəniz səviyyəsi üzrə müşahidələr aparılır və dənizdə fəaliyyət göstərən qurumlara, xüsusilə neft-qaz əməliyyatları şirkətlərinə, dəniz nəqliyyatçılarına, limanlara bu barədə erkən xəbərdarlıq edilir ki, fəaliyyətlərini vəziyyətə uyğun planlaşdıra bilsinlər.

Nazirlik rəsmisi hazırda Xəzər dənizinin səviyyəsinin enməsinin ətraf mühit, insan sağlamlığı və təsərrüfat sahələri üçün təhlükəli hesab olunmadığını da qeyd edib.

# Sayımız daim artsın!



***Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ölkə üzrə əhalinin sayı ilin əvvəlindən 24692 nəfər və ya 0,3 faiz artaraq 2019-cu il may ayının 1-i vəziyyətinə 10006149 nəfərə çatıb.***

Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Cari ilin dörd ayı ərzində Azərbaycanda 44 min 741 körpə doğulub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə (13,8) qalıb. Doğulanların 53,5 faizi oğlan, 46,5 faizi isə qız uşaqlarıdır. Körpələrdən 924-ü əkiz, 33-ü isə üçəmdir.

Həmçinin yanvar-aprel aylarında ölkədə 20 min 135 ölüm halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,3-dən 6,2-yə qədər azalıb.

# BMT internet saytlarında "nifrət sunamisi"nə son qoymağa çağırıb



***2018-ci ildə antisemitizm zəminində insidentlərin sayı əvvəlki illə müqayisədə 134 faiz artıb. Bunu BMT-nin Baş Assambleyasının rəqəmsal texnologiyalar əsrində kin və nifrət probleminə həsr olunmuş tədbirində çıxış edən təşkilatın baş katibi Antonio Quterreş bəyan edib.***

BMT-nin saytı xəbər verir ki, Antonio Quterreş irqçiliyin bürün təzahürlərinə qarşı mübarizə aparmaq üçün ölkələrin səylərini birləşdirməyə çağırıb. Onun sözlərinə görə, bəşəriyyətin ən böyük faciələrindən biri olan Holokost məhz Avropanın mərkəzində törədilib. Baş katib əlavə edib: "Hitler məğlub olub, amma antisemitizm davam edir. Onun yox edilməsinə hələ çox var. Avropa ölkələri və ABŞ-da sinaqoqlara, habelə məscid və kilsələrə edilən hücumlar ksenofobiya meyillərinin güclü olduğunu göstərir".

Bundan əvvəl BMT-nin baş katibi kin və nifrətin qarşısını almaq üçün yeni Plan və strategiyanın hazırlandığını elan edib. Bu təşəbbüsün məqsədi təşkilatın bütün strukturlarını irqçilik, ksenofobiya, ayrı-seçkilik və dözümsüzlüyün digər təzahürlərinə qarşı mübarizəyə səfərbər etmək olub. A.Quterreş bildirib ki, bu mübarizə söz azadlığının pozulması deyil, əsas məqsəd beynəlxalq hüquq normaları ilə qadağan edilmiş zorakılıq, kin və nifrət hallarının qarşısını almaqdan ibarətdir. O, bu kontekstdə bəzi sosial şəbəkə istifadəçilərinin mənfi fəaliyyətini qeyd edib və vurğulayıb ki, onlar cəzasızlıq şəraitində ksenofobiya və irqçilik təbliğatı aparırlar. Baş katibin sözlərinə görə, bunun qarşısını almaq üçün təşkilat tərəfindən rəqəmsal əməkdaşlıq üzrə xüsusi qrup yaradılıb və bu strukturun üzvləri öz təkliflərini təqdim ediblər.

Tədbirdə çıxış edən Baş Assambleyanın sədri Mariya Fernanda Espinosa Avropada və dünyanın digər regionlarında antisemitizmlə bağlı rəqəmləri açıqlayıb. O əlavə edib ki, keçmişdə yaşanmış faciələrin təkrar olunmasına yol vermək olmaz və bunun üçün insanların maarifləndirilməsi, ekstremistlərə qarşı mübarizənin gücləndirilməsi böyük əhəmiyyət kəsb edir. Mariya Fernanda Espinosa deyib: "Bu cür halların qarşısını almaq üçün internetdə kin və nifrət məzmunlu yazıları izləmək lazımdır. Avropa Yəhudi Konqresinin məlumatına görə, hər gün sosial şəbəkələrdə Holokostu inkar edən yüzlərlə qeydlər yerləşdirilir". O, faşist düşərgəsinin məhbusu Eli Vuzelin sözlərini sitat gətirib: "Sevginin əksi nifrət və biganəlikdir".

# Havanın temperaturu +41 dərəcə selsidən çox olduqda işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görülməlidir



***Yay mövsümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərin diqqətinə çatdırır ki, havanın temperaturunun +41 dərəcə selsidən çox olduğu hallarda işçilərin həyat və sağlamlığının qorunması üçün əmək qanunvericiliyinə əsasən zəruri tədbirlərin görülməsi təmin edilməlidir.***

Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu +41 dərəcə selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Qeyd olunan hallarda işçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Məcəlləyə əsasən, iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməli, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməlidir.

İşçilərin həyat və sağlamlığının qorunması məqsədilə əməyin mühafizəsi tədbirlərinin görülməsi, o cümlədən havanın temperaturunun +41 dərəcə selsidən çox olduğu hallarda bu məqsədlə zəruri işlərin aparılması qanunvericiliklə işəgötürənlərin əsas vəzifələrindən biridir.

# İkinci Dünya müharibəsi illərində qaraçıların soyqırımı faktı tanınıb



***ELTA agentliyinin verdiyi xəbərə görə, Litva Seymi tərəfindən anım günlərinin siyahısına yeni – hər il avqustun 2-də qeyd ediləcək qaraçı soyqırımı qurbanlarının anım günü əlavə olunub.***

"Bu, çoxdan gözlənilən qərar idi. Yəqin ki, artıq bizimlə olmayan insanlar da buna sevinir. Qaraçıların soyqırımı faktının tanınması hər halda bizim icmamız üçün çox böyük məsələ idi. Əlbəttə, soyqırımının miqyası tədqiqatların obyekti ola bilərdi. Onu deyə bilərəm ki, bu gün mənim qəlbimdə böyük nur var", - deyə Litva Qaraçıları İcmasının sədri İştvan Kvik ELTA agentliyinə Seymin qərarını şərh edib.

Beynəlxalq təşkilatlar İkinci Dünya müharibəsi illərində qaraçıların soyqırımı faktını rəsmi şəkildə tanıyırlar və avqustun 2-də bütün dövlətlərdə bu günün qeyd olunmasına səy göstərirlər. 2015-ci il aprelin 15-də Beynəlxalq Qaraçılar Günü ilə əlaqədar Avropa Parlamenti "Avropada qaraçılara qarşı ədavət və İkinci Dünya müharibəsi illərində Qaraçıların Soyqırımı Günü haqqında" qətnamə qəbul etdi. Qətnamədə İkinci Dünya müharibəsi illərində qaraçıların soyqırımı faktı tanınıb, təşkilat bütün dövlətləri bu günü qeyd etməyə və 2 avqust tarixini Qaraçıların Soyqırımı Günü elan etməyə çağırıb.

2 avqust tarixi təsadüfən seçilməyib. 1944-cü ilin bu günündə Polşa ərazisindəki Auşvits-Birkenau həbs düşərgəsində 3 minə yaxın qaraçı qətlə yetirilib. Bu il həmin faciəli hadisənin 75 ili tamam olur. Litvada İkinci Dünya müharibəsi illərində 500-dək qaraçı öldürülüb.

# "Qlobal istiləşmə şəraitində iş: isti havaların əmək şəraitinə və istehsalata təsiri"

***Beynəlxalq Əmək Təşkilatı (BƏT) yeni hesabatında bildirib ki, iqlim dəyişmələri dünyada 80 milyon iş yerinin itirilməsinə səbəb ola bilər. Bu mənfi proseslərin dünya iqtisadiyyatına mənfi təsiri 2,4 trilyon dollar olacaq.***

BMT-nin rəsmi saytı xəbər verir ki, hesabat cari ilin sonunda qlobal temperaturun 1,5 dərəcə Selsi artacağı barədə proqnozlara əsaslanır. BƏT bildirib ki, hesabatdakı rəqəmlər daha yüksək ola bilər. "Qlobal istiləşmə şəraitində iş: isti havaların əmək şəraitinə və istehsalata təsiri" adlanan hesabatda qlobal iqlim dəyişikliklərinin ayrı-ayrı regionlarda və planetimizdə əmək şəraitinə mənfi təsiri məsələləri əks olunub.

Hesabatda bildirilir ki, sağlam insan rütubət şəraitində 35 dərəcə istiyə dözə bilər. Lakin bu, onun orqanizmində "isti stressi" adlanan sindrom yaradır. Hava şəraiti bu temperaturdan yuxarı olduqda isə, mütəxəssislərin qəti qənaətinə görə, insanın fiziki imkanları azalır və məhsuldarlıq aşağı düşür. İsti hava şəraitində işləmək 940 milyon insanın çalışdığı kənd təsərrüfatı sektorunda xüsusilə təhlükəlidir. Bu sahədə temperatur dəyişikliyi iş vaxtının 60 faiz, tikinti sektorunda isə 19 faiz itirilməsinə səbəb olacaq. Hesabat müəllifləri vurğulayır ki, əsas iqtisadi itkilər ən yoxsul əhalinin yaşadığı, ən az gəliri olan ölkələrin payına düşəcək. Çünki bu dövlətlərdə adaptasiya mexanizmləri yoxdur. Beləliklə, gələcəkdə yoxsul və varlı dövlətlər arasında uçurum daha da dərinləşəcək, xüsusilə əməyin haqqının ödənilməsi və sosial müdafiə məsələlərində böyük fərqlər yaranacaq.

BƏT-in nümayəndəsi Ketrin Saqet bildirib ki, "istiləşmə stressi"nin əmək məhsuldarlığına təsiri iqlim dəyişmələrinin ən ciddi fəsadlarından biridir. O əlavə edib "Biz ölkələr arasında qeyri-bərabərliyin artacağını, əhalinin ən yoxsul təbəqələri üçün əmək şəraitinin daha da pisləşəcəyini proqnozlaşdırırıq".

Bu proseslərin ən ciddi nəticələri isə miqrasiya prosesinin güclənməsi ilə əlaqədardır. Bu yaxınlarda BƏT-in konfransında qəbul edilimiş "Əsrin Bəyannaməsi"ndə yuxarıda göstərilən problemlərin həlli üçün 2030-cu ilədək təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyi qeyd olunub.

# Ən böyük şirin su ehtiyatı aşkar edilib



***1970-ci illərdə, Atlantik okeanı altında neft və qaz ehtiyatları axtarışları zamanı neft şirkətləri tez-tez şirin suya təsadüf ediblər. Bu tapıntılar göstərib ki, haradasa duzlu su altında şirin sulu təbəqə mövcuddur və bu təbəqə perspektivdə çox böyük içməli su mənbəyi ola bilər. "hi-news.ru" bildirir ki, alimlərin torpağın altında gizlənmiş su ehtiyatlarının həcmi barədə indiyədək dəqiq məlumatı olmayıb, lakin onilliklər boyu aparılan tədqiqatlardan sonra bu sirr, nəhayət, açılıb. Məlum olub ki, şirin sulu təbəqə ABŞ-ın bütün şimal-şərq sahilboyu uzanır.***

Bu kəşfi dəniz geoloqu Kloye Qustafsonun rəhbərliyi ilə bir qrup tədqiqatçı edib. Tədqiqat 2015-ci ildə başlayıb: alimlər Nyu-Cersi sahillərini və Martas-Vinyard adasını "Marcus G. Langseth" gəmisinin elektromaqnit qəbuledicisinin köməyi ilə skanlayıblar.

Şirin sudan fərqli olaraq duzlu suyun böyük elektrik keçiriciliyi şirin sulu təbəqənin xəritəsini tərtib etməyə kömək edib.

Məlum olub ki, şirin su ehtiyatları Massaçusetsdən başlayaraq Nyu-Cersiyədək uzanır, Delaver, Nyu-York, Konnektikut və Rod-Aylendi əhatə edir. Uzunluğu 350 kilometr olan rezervuarda 2,8 min kubkilometr azacıq duzlu su var. Suda duzun mövcudluğu xüsusilə yuxarıdan, okean dibinə yaxın yerdən yaxşı görünür: belə suyu istifadə etməzdən əvvəl onu şirinləşdirmək lazımdır.

Yeraltı şirin su ehtiyatlarının 15-20 min il əvvəl, buzlaqların əriməsi, habelə hərəkətdə olan su mənbələrinin qabarması və çəkilməsi zamanı əmələ gəldiyi ehtimal olunur. Onların sahəsi daha çox ola bilər. Çox güman, gizli şirin su ehtiyatları ABŞ-ın Atlantik kontinental şelfinin şərq hissəsində toplanıb. Əgər bu ehtimal doğrudursa, onda alimlər dünyada məlum şirin su ehtiyatlarından ən böyüyünü kəşf ediblər .

# Dünyanın ən böyük LNG gəmilərindən biri olan "Q-Flex" tipli tankerlə 207 min kubmetrlik LNG-nin nəqli reallaşdırılıb



***"Qatargas" Türkiyəyə böyük həcmdə mayeləşdirilmiş təbii qaz (LNG) göndərib.***

Qatargas" şirkəti dünyanın ən böyük LNG gəmilərindən biri olan "Q-Flex" tipli tankerlə 207 min kubmetrlik LNG-nin nəqlini reallaşdırıb.

Mayın 30-da 210 min kubmetr tutuma malik "Q-Flex" tipli "Əl-Sheehaniya" adlı tanker Ras Laffan limanından yola düşüb.

Qeyd edək ki, "Qatargas"ın 14 LNG tankeri və illik 77 milyon ton LNG istehsalı tutumu var.

# Baltik qaz kəməri vaxtından əvvəl istifadəyə verilib



***Estoniya ilə Finlandiyanı birləşdirən Baltik qaz kəməri vaxtından əvvəl istifadəyə verilib.***

Uzunluğu 77 kilometr olan kəmərin inşasında məqsəd iki ölkə arasında təbii qazın nəqlini həyata keçirməklə regional enerji təhlükəsizliyini təmin etməkdir.

Qaz kəmərinin inşasına 2018-ci ildə başlanılıb. Fin körfəzini keçən kəmər vasitəsilə hər il 2 milyard kubmetr qaz nəql ediləcək. Ümumilikdə, tikinti işlərinə 300 milyon avro vəsait sərf olunub. Vəsaitin bir hissəsi Avropa İttifaqı, qalanı isə Finlandiya və Estoniya hökumətləri tərəfindən ödənilib.

***Aygün Əliyeva***

# "Exxon Mobil" şirkəti Norveç sahillərindəki neft-qaz yataqlarının ona məxsus səhm paketlərini satmağa hazırlaşır



***Dünyada ən böyük neft şirkəti olan "Exxon Mobil" Norveç sahillərindəki neft-qaz yataqlarının ona məxsus səhmlərin hamısını satmağa hazırlaşır.***

Reuters agentliyi xəbər verir ki, dünyada ən böyük neft şirkəti olan "Exxon Mobil" iki il bundan əvvəl həmin rayonda özünün iri aktivlərini satıb, lakin 20-dən çox yataqda, o cümlədən "Snorre" yatağında paylarını saxlayır. Şirkətin mətbuat katibi Enn Fuqner deyib: "Bir neçə şirkət tərəfindən bizim səhmlərə maraq göstəriləndən sonra şirkət Norveçdəki yataqlar portfelinə bazarda marağı yoxlamaq üçün bu məlumatları açıqlamağı qərara alıb". E.Fuqner daha sonra bildirib ki, səhmlərin satılması barədə qərar hələ qəbul edilməyib.

Bir sıra özəl şirkətlər, o cümlədən "Okea", həmçinin "Aker BP" və "DNO" müstəqil neft şirkətləri bu il Norveçin kontinental şelfində daha çox aktiv almaq istəyirlər.

Ekspertlərin fikrincə, şirkətin regiondakı aktivlərinin dəyəri 3-4 milyard dollara bərabərdir.

Norveçin "Okea" neft şirkətinin icraçı direktoru Erik Xauqane bu həftə Reuters agentliyinə bildirib ki, 10 ildən sonra Norveçin "Equinor" şirkəti istisna olmaqla bütün iri neft şirkətləri bu ölkənin kontinental şelfini tərk edəcəklər. Amerikanın ən iri neft şirkəti olan "Chevron" keçən il Norveçin ofşor lisenziyasında özünün sonuncu payını satıb.

***Rauf Əliyev***

# "Bizə "boz iqtisadiyyat" deyil, "yaşıl iqtisadiyyat" lazımdır"



***Bizim məqsədimiz cari yüzilliyin ikinci yarısında karbonsuz gələcəyə nail olmaqdır.***

BMT-nin Baş katibi Antonio Quterreş Birləşmiş Ərəb Əmirliklərində qarşıdan gələn iqlim sammitinin gündəliyinin hazırlanması məsələsinə həsr edilmiş konfransda çıxış edib. BMT rəhbəri qlobal istiləşmənin nəticələrini xatırladaraq qeyd edib ki, belə nəticələrdən biri Himalay buzlaqlarının sürətlə əriməsidir. Bu, Asiya ölkələrində ciddi problemlərə gətirib çıxara bilər.

A.Quterreş deyib: "Hər həftə iqlim dəyişmələri ilə bağlı yeni dağıntılar baş verir. Daşqın, quraqlıq, yanğın və qasırğaların baş vermə tezliyi artıb. Keçən ay mən Sakit okeanın cənubundakı Tuvaluya getmişdim. Orada insanların daim vahimə içərisində yaşadıqlarını gördüm: onlar qorxurlar ki, dəniz səviyyəsinin artması subasmaya səbəb ola bilər. İqlim dəyişmələri ucbatından bütün dünyada insanlar evlərini itirir, miqrasiya etməyə məcbur olurlar".

İqlim dəyişmələrinə həsr edilmiş sammit bu il sentyabrın 23-də Nyu-Yorkda keçiriləcək. Həmin sammitin əsas məqsədi Paris Sazişinin yerinə yetirilməsinin konkret yollarını razılaşdırmaqdır. Bu Sazişə əsasən, qlobal temperatur artımını 2 dərəcə, imkan daxilində 1,5 dərəcə həddində saxlamaq vəzifəsi qarşıya qoyulub.

BMT rəhbəri deyib: "Mən bütün liderlərə – hökumətlərin və özəl sektorun nümayəndələrinə müraciətlə parnik qazları tullantılarını 2030-cu ilədək 45 faiz azaltmaq, 2050-ci ilə qədər onların həcmini sıfıra endirmək barədə planlarını qarşıdakı sammitdə və ya ən geci 2020-ci il dekabrın sonuna qədər təqdim etməyə çağırıram".

Vaxtı itirməməyə çağıran BMT rəhbəri xəbərdarlıq edib ki, vəziyyət pisləşəcək. Ötən həftə dərc edilmiş məlumatlara görə bu əsrin əvvəlindən Himalay buzlaqlarının əriməsürəti iki dəfə artıb. Bu, Mərkəzi, Şərqi və Cənubi Asiyada su təchizatı ilə bağlı problemlərə gətirib çıxara bilər. Arktikadakı əbədi buzlaqlar proqnozlaşdırılandan daha sürətlə əriməkdədir.

Baş katib alimlərin son vaxtlar elan etdiyi nəticələrə istinad edib. Onlar xəbərdarlıq edirlər ki, hətta ölkələr iqlimə dair Paris Sazişinin müddəalarını tam həcmdə yerinə yetirsələr belə, bu yüzillikdə temperatur 3 dərəcə arta bilər. Bu isə fəlakətli nəticələrə gətirib çıxaracaq. Bununla belə, hələlik temperaturun 1,5 dərəcədən çox artmasına yol verməmək mümkündür, lakin bunun üçün bütün sahələrdə: torpaq resurslarının idarəedilməsi, energetika, sənaye, tikinti və nəqliyyat sahələrində təcili tədbirlər görmək lazım gələcək.

Antonio Quterreş deyib: "Buna görə mən sentyabrda iqlim məsələlərinə dair sammit çağırıram". O, "yaşıl iqtisadiyyat"ın üstünlüklərini xatırladaraq, bərpaolunan enerji mənbələrinə keçid prosesini fəallaşdırmağa çağırıb. O vurğulayıb ki, iri iqtisadiyyata malik olan ölkələrin demək olar hamısında günəş və külək ən ucuz enerji mənbələrinə çevrilib.

Əbu-Dabidə günəş enerjisi ilə işləyən elektrik stansiyasına gedəcəyi günü səbirsizliklə gözlədiyini deyən Baş katib xatırladıb ki, qlobal istiləşməyə qarşı mübarizənin yolları məlumdur. Onun sözlərinə görə, bütün dövlətlər parnik qazları tullantılarına görə vergi tətbiq etməli, qazıntı şəklində yanacağın hasilatına və istifadəsinə subsidiya ayrılmasını dayandırmalı, iqtisadiyyat sahəsində qərarlar qəbul edilərkən iqlim dəyişməsi amilini nəzərə almalıdırlar.

BMT-nin Baş katibi vurğulayıb: "Vergi ödəyicilərinin pulları qasırğaların daha dağıdıcı olması, dünyanın quraqlıqdan və qızmar havadan əziyyət çəkməsi, buzlaqların əriməsi üçün istifadə edilməməlidir. Biz kömürlə işləyən yeni elektrik stansiyaları tikintisini 2020-ci ilə qədər dayandırmalıyıq. Bizə "boz iqtisadiyyat" deyil, "yaşıl iqtisadiyyat" lazımdır".

# Bir neçə funksiyanı yerinə yetirən göl

***AZƏRTAC oxucuları Almaniyanın Alp regionunun ən məşhur yerlərindən birinə ekskursiyaya dəvət edir. Şvanqau bölgəsindəki dağların ətəyində Bavariya kralı II Lüdviqin əfsanəvi Noyvanştayn qəsri yerləşir. Lakin indi əvvəllər də bəhs etdiyimiz bu dünyamiqyaslı bu tarixi abidədən deyil, buradakı Forqqenze gölündən söhbət açmaq istəyirik.***



Forqqenze sahəsinə görə Bavariya əyalətinin beşinci gölü və Almaniyanın ən böyük su anbarıdır. Turistlər üçün bələdçi kitabında qeyd olunur ki, suyun səviyyəsindən asılı olmayaraq onun sahəsi 16 kvadrat kilometrdir. Gölün adı suyun altında qalmış Forqqen qəsəbəsinin adı ilə bağlıdır.

Ərazidə su anbarı tikmək planı XIX əsrin sonlarında meydana gəlib, sonra iki dünya müharibələri arasında ona yenidən baxılıb, lakin yalnız 1950-ci ildə bu anbarı tikmək mümkün olub. İlk mərhələdə suyun səviyyəsinin bir neçə metr yüksək olması nəzərdə tutulub, lakin belə olan halda çoxlu sayda insanları köçürmək lazım gəlirdi, habelə kənd təsərrüfatı sahələri itirilə bilərdi. Sonda yeni məkana 250 insan və on beşə qədər kəndli təsərrüfatı köçürüldü. Forqqenze su anbarı bir neçə funksiyanı yerinə yetirir. Birincisi, buradakı bənddə su elektrik stansiyası fəaliyyət göstərir. İkincisi, bəndin suyu Lex çayı üzərində olan digər SES-lər üçün istifadə olunur. Üçüncüsü, dağlarda qarın əridiyi vaxt və şiddətli yağışlar zamanı bu anbar axın üzrə aşağı ərazilərdə yerləşən məkanları subasmadan qoruyur. Dördüncüsü, yay aylarında populyar turizm məkanında yerləşən bu cür süni göllər istirahət və müxtəlif su idmanı növləri ilə məşğul olmaq məqsədilə istifadə olunur. Məsələn, burada bir neçə yaxta məktəbi fəaliyyət göstərir.

Gölün sahillərində kempinqlər yerləşir, Füssen şəhərindəki limandan isə buradakı iki səyahət katerindən biri ilə göl boyu ekskursiyaya yollanmaq mümkündür. Doğrudur, bu göldə il-boyu çimmək, balıq tutmaq və yaxtalarda və ya qayıqlarda gəzmək olmur, çünki su hövzəsi növbəti mövsümə hazırlaşmaq üçün qarlar əriyənədək qış aylarında boşaldılır. Artıq iyunun əvvəlində göldə "Alqoe" və "Füssene" turist katerlərində oktyabrın 15-dək gəzintiyə çıxmaq üçün kifayət qədər su olur. Yalnız 2018-ci ildə bəndin planlaşdırılmış təmiri ilə əlaqədar su doldurulmadığından, bu səyahətlər mümkün olmayıb. Belə ki, turistlər həmin il gölün dibində və üzərində həm yay, həm də qış aylarında gəzə biliblər. Lakin hazırda göl su ilə doludur və hər şey əvvəlki axarına qayıdıb.

Qış aylarında gölün dibi ilə gəzərkən təkcə su altında qalmış evlərin bünövrələrini deyil, həmçinin qədim Roma yolu olan Via Claudia Augustanı görmək mümkündür. Gölün üzərindən isə paraplanerçilər uçur. Onları burada tez-tez görmək olar. Vadinin aşağısında Füssen şəhəri yerləşir və buradan keçən yollar Noyvanştayn və Xoenşvanqau qəsrlərinə aparır. Marienbrük körpüsündən isə gölə gözəl mənzərə açılır. Qeyd edək ki, Noyvanştayn qəsrinin tikintisi zamanı Forqqenze gölü yox idi.

Su anbarı və digər yerləri görməklə bu yerləri gəzərkən anlayırsan ki, nədən kral II Lüdviq öz əfsanəvi iqamətgahını tikmək üçün məhz bu məkanı seçib. Qəsrin ətrafında üç təbii göl – Alpze, Şvanze və Banvaldze də var.

# Sənaye sektorundakı hər bir robot 1,6 nəfəri işsiz qoyacaq



***Robotlar 11 il ərzində dünyanın istehsal sənayesində çalışan 20 milyon nəfəri işsiz qoyacaq.***

Böyük Britaniyada yerləşən "Oxford Economics" şirkətinin məlumatına görə, avtomatlaşdırma iqtisadi artımı yüksəldəcək və nəticədə gəlir bərabərsizliyi yaranacaq. Şirkətin hesabatına görə, sənaye sektorundakı hər bir robot 1,6 nəfəri işsiz qoyacaq.

İşsiz qalan insanlar nəqliyyat, tikinti və ofis işlərinə yönəlsə də, bu sahələrdə də avtomatlaşdırma həyata keçiriləcək və nəticədə işsizlik daha da artacaq. Şirkət siyasətçiləri, iş adamlarını və müəllimləri işçi qüvvəsinin artan avtomatlaşdırmaya uyğunlaşması üçün səy göstərməyə çağırıb.

Dünya miqyasında robotlar 2000-ci ildən etibarən təxminən 1,7 milyon insanı işsiz qoyub. Bu rəqəm Avropada 400 min, ABŞ-da 260 min, Çində isə 550 min nəfər təşkil edir.

***Aynurə Tağıyeva***

# Çirçik çayının sol sahilində Yeni Daşkənd şəhəri salınacaq



***Özbəkistanın paytaxtı Daşkənd şəhərinin şərqində, Çirçik çayının sol sahilində şərti olaraq Yeni Daşkənd adlanan şəhər salınacaq.***

Yeni şəhərin baş planını İngiltərənin Benoy Memarlıq Şirkəti hazırlayıb.

Daşkənd şəhər hakiminin memarlıq, kapital tikinti və kommunikasiyaların inkişafı üzrə müavini Davron Hidayatov jurnalistlərə bildirib ki, paytaxt Daşkəndin ərazisi 33 min hektardır, layihəyə görə ona 18 min hektar da birləşdiriləcək. Yeni Daşkənddə inzibati rayon, işgüzar mərkəzlər, müasir üslubda yaşayış binaları, ticarət pavilyonları, yaşıllıq zonaları, parklar olacaq.

Layihəyə əsasən, 2 milyon nəfərin yaşayacağı yeni şəhərin hava limanı da olacaq.

# ABŞ vətəndaşı 218 dollara aldığı videomaterialları milyonlarla dollara satacaq



***ABŞ vətəndaşı Qeri Corc "Apollon-11" kosmik gəmisinin Aya enməsini göstərən videomaterialları 40 il əvvəl hökumətin keçirdiyi hərracda 218 dollara alıb. O, indi bu materialları televiziya kanallarına milyonlarla dollara satmağa hazırlaşır.***

The Guardian qəzeti xəbər verir ki, Corc üzərində "Apollon 11 EVA" yazılmış videomaterialları uzun illər saxlayıb və yüksək keyfiyyətinin pozulmamasına nəzarət edib. Bu videolarda 1969-cu ildə astronavtlar Nil Armstrong və Bazz Oldrinin Ayın səthinə enməsini göstərən yeganə orijinal görüntülər var. Videomateriallarda Nil Armstronqun məşhur "Bu insan üçün kiçik bir addım, bəşəriyyət üçün nəhəng bir sıçrayışdır" kəlamını söylədiyi kadr da var.

Qeri Corc iyulda videomaterialları Nyu-Yorkdakı "Sotheby" hərracında satışa çıxarmağa hazırlaşır. Onun təklif ediləcəyi ilkin qiymət 2 milyon dollar olacaq.

Kolleksiyada Bazz Oldrinin Ayən səthində minimal qravitasiya şəraitində addımlaması, ABŞ-ın dövlət bayrağının sancılması, nümunələrin götürülməsi kadrları əks olunub. Həmçinin ekipajın Prezident Riçard Niksonla telefonla danışması da bu kadrlara daxildir.

Las-Veqasdan olan təqaüdçü mexanik-mühəndis 65 yaşlı Corc Reuters agentliyinə müsahibəsində sevincini gizlətməyib: "Mən təsəvvür belə etmirdim ki, necə bahalı bir videomaterialı saxlayıram. Mən onların ayrı-ayrı epizodlarını televiziya kanallarına da satdım".

NASA 2006-cı ildə bəyan etmişdi ki, onun əməkdaşları astronavtların Aya enməsini göstərən video kadrların orijinalını tapa bilmir. Bu vaxt həmin agentlikdə çalışan dostu ilə birlikdə səyahət edən Corc bildirib ki, videomateriallar onun əlindədir.

# YARIZARAFAT, YARIGERÇƏK

**Çörək yeganə şeydir ki, çörək itirənlər çox olan yerdə çörək tapanlar az olar.**

**İftira ilə əli çörəyə çatanların ya dili kəsilməlidir, ya çörəyi.**

**Axtaran nəsə, axtara bilən çox şey tapır. Qalan şeylər daha çox axtarmayanların qismətinə yazılır.**

**Hər kəs bacardığı işlə məşğul olur. Bu baxımdan işi-peşəsi haqqınızda yalan danışmaq olanlardan da küsməyə dəyməz.**

**Özü dəyişməyənin gözündə də heç nə dəyişmir.**

**Pozmağı yazmaqdan yaxşı bacarmayan yaxşı heç nə yaza bilməz.**

**Vaxtla hesablaşmayanların da bir gün vaxtı gəlir.**

**Xəbərçilərə:imkan verin nə isə edək, sonra xəbər çatdırın.**

**Daha qəribəsi budur ki, öz yerində oturmayanlar da başqalarına yerini göstərir.**

**Ağzını açan kimi cahilliyi görünənlərin ağzını bağlı görən olur?**

**Sahildə gözləyəni olmayan dənizçi üçün səfərlərin qısası-uzunu olmur.**

**Bəzi "işgüzar" adamlar adi işləri də elə təqdim edirlər ki...**

**Kimin doğru-düzgün etdiyini aydınlaşdırmaq xeyli vaxt aparır. Ondansa nəyin doğru olduğunu dəqiq bilin.**

**Heç oxumayan qadınlar da çox kişini "göydə oxuyurlar".**

**Həyatda yaxşılıq adına nə etdimsə, hamı elə bildi ki, borcumdur.**

**Göz yaşları dərdi yumşaldır?**

**Olduğum yerdə gördüklərimi görməmək üçün olmadığım yerdə olmaq istəyirəm.**

**Sevənlərin əksəriyyəti əzab çəkməyi bacaranlardır.**

**Kasıb üçün ən çox oxunan mahnı:"Olmaz, olmaz, olmaz!"**

**Dərsini vermədiklərin sənə dərs verməyə çalışacaqlar.**

**Başqa yolun olduğunu düşünməyənlər daha sərfəli yol tapa bilməzlər.**

**Qulağın öz yeri var. Yerin də qulağı... var.**

**Bizi özümüzdən kim çıxarırsa-çıxarsın, özümüz özümüzə qayıtmalıyıq.**

**Barmağı bala batanların arasında arıçıdan çox arı olmayanlar var.**

**Niyə çox yerdə nə sözün düzünü demirlər, nə də düzün sözünü?**

**Ya mərd olmalısan, ya da... "Ya da"-lardan biri olmayın.**

**Üzmək istəmədiklərim üzməsə, bəlkə dünyanın məni üzməsinə də dözə bilərəm.**

**Sözüm üçün darıxanda özümlə tək qalmaq istəyirəm.**

**Əyrinin düz vaxtı olmadığı kimi, kaş düzün də əyilən vaxtı olmasın.**

**Yaxşı adamı minimum əmək haqqına maksimum neçə dəfə satmaq olar?**

**Yaxşı adamları satanlardan ən azı, gəlir vergisi niyə tutulmasın?**

**Müəllif hüququnun nə olduğunu anlamayanlar hər dəfə yazılarımı öz adına çap edəndə, mən də şükür edirəm ki, nə yaxşı, məni oğurlamayıblar.**

**İndi kolxoz yoxdursa, niyə kolxoz sədri kimi danışan çoxdu?**

**Aldadana kimi şeytan insanın dalınca düşür, aldanandan sonra insan şeytanın.**

**Qəlbi gözəl olmayanın gördüyü heç bir iş gözəl olmaz.**

**Mərhəmətə bax da... Etmədiyim günaha görə bəzən mənə bəraət də verirlər.**

**Güc biclikdədir?**

**Bəzilərinin deyəsən həmişə ehtiyat yalanı olur.**

**Etibar etmədiklərim niyə mənə daha çox etibardan danışırlar?**

***Rasif TAHİROV***

## Cüdoçumuz dünya reytinq cədvəlində liderliyini qoruyub



*Azərbaycanlı cüdoçu Rüstəm Orucov (73 kq) dünya reytinq cədvəlində liderliyini qoruyub.*

İkinci Avropa Oyunlarının gümüş mükafatçısı ən yaxın izləyicisi Cənubi Koreya təmsilçisi Çangrım Anı 50 xal qabaqlayır. Həmin çəki dərəcəsində daha bir idmançımız Hidayət Heydərov da liderlər qrupunda mövqeyini dəyişməyib. İkinci Avropa Oyunlarında bürünc medal qazanan idmançımız altıncı pillədədir.

"Minsk 2019"un bürünc mükafatçıları Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov (100 kq), Uşangi Kokauri (+100 kq) isə bir pillə irəliləyiblər. M.Mehdiyev 4-cü, E.Qasımov 10-cu, U. Kokauri isə 13-cü mövqedədirlər.

Komandamızın digər üzvləri Nicat Şıxəlizadə (66 kq) 25-ci, Orxan Səfərov (60 kq) 37-ci sırada qərarlaşıblar. Qadın cüdoçumuz İrina Kindzerskanın (+78 kq) da mövqeyi dəyişməyib. "Minsk 2019"da bürünc medal qazanan idmançımız dünya reytinq cədvəlində dördüncüdür.

## Avropa Oyunlarının standartları Bakıda müəyyənləşdirilib





***İyunun 21-30-da Belarusun paytaxtı Minskdə ikinci Avropa Oyunları keçirildi.***

İkinci Avropa Oyunlarında qitənin 50 ölkəsindən 4 mindən çox atlet idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə apardı.

Azərbaycan "Minsk 2019"da 82 idmançı ilə təmsil olunmuşdu. Atletlərimiz idmanın 11 növü üzrə medallar uğrunda yarışdı. Azərbaycan idmançıları bu mötəbər yarışda 28 (5-10-13) medal qazanaraq onuncu pillədə qərarlaşdı.

İkinci Avropa Oyunlarında medalların sayına görə birinci yeri dörd il əvvəl olduğu kimi Rusiya komandası tutdu. Rusiyalı atletlər ümumilikdə 109, o cümlədən 44 qızıl, 23 gümüş və 22 bürünc medal qazandılar.

Ev sahibi Belarus millisi 69 (24-16-29) medalla ikinci oldu. Üçüncü yeri isə aktivində 51 medal (16-17-18) olan Ukrayna tutdu.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. Azərbaycan bu mötəbər idman yarışının təşkili üçün qalan 30 aylıq qısa müddətdə hazırlıq prosesini yüksək səviyyədə başa vuraraq Avropa Oyunlarının standartlarını müəyyənləşdirib.

"Bakı 2015"də uğurla çıxış edən Azərbaycan millisi komanda hesabında ikinci yerdə qərarlaşıb. İdmançılarımız Oyunlarda 56, o cümlədən 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanıblar.

Üçüncü Avropa Oyunları 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək.

## Frenk Lampard "Çelsi" klubunun baş məşqçisi vəzifəsinə təyin olunub



***Futbol üzrə İngiltərə millisinin və "Çelsi" klubunun sabiq yarımmüdafiəçisi Frenk Lampard London təmsilçisinin baş məşqçisi vəzifəsinə təyin edilib.***

Beş il əvvəl "Çelsi"dən ayrılan 41 yaşlı F.Lampard bu klubun tarixində ən məhsuldar futbolçu olub. "Zadoganlar"ın heyətində çıxış etdiyi 2001-2014-cü illərdə 211 qol vuran F.Lampard bu müddətdə UEFA Çempionlar Liqasının, üç dəfə Premyer Liqanın və dörd dəfə FA Kuboku turnirinin qalibi adını qazanıb.

F.Lampard məşqçilik karyerasına İngiltərənin ikinci liqasında - Çempionşipdə çıxış edən "Derbi Kaunti" komandasını çalışdırmaqla başlayıb. Klub onun rəhbərliyi ilə Premyer Liqaya yüksəlmək üçün təsnifat mərhələsinə vəsiqə qazansa da, bu şansı əldən vermişdi.

Xatırladaq ki, "Çelsi" klubunu 2016-cı ildən çalışdıran italiyalı Maurizio Sarri "Yuventus" ilə müqavilə bağlayıb.

## Allergik təmas dermatiti və onunla mübarizə



***Allergik təmas dermatiti allergenə qarşı həssaslığı olanlarda allergenlə təmasda olarkən baş verir və müxtəlif kimyəvi maddələr dəriyə sensibilizator, yəni aşındırıcı təsir göstərir. Orqanizmin sensibilizasiyasının inkişafı xəstənin allergik reaktivliyindən, sinir və endokrin sistemindən asılı olaraq 5-7 gün, bəzən də bir neçə ay çəkə bilər.***

Allergik təmas dermatiti haqqında danışan həkim-dermatoloq Solmaz Orucova AZƏRTAC-a deyib: "Yumurta, sitrus meyvələri, çiyələk və digər allergik qidalara qarşı həssaslıq anadangəlmə də ola bilər. Daha çox yüksək həssaslıq allergenlə təkrar təmas zamanı başlayır və nəticədə orqanizmin monovalent sensibilizasiyası baş verir, ləng tipli allergik reaksiya və epidermis hüceyrələrində antigen-antitel kompleksi əmələ gəlir.

Onun əmələ gəlməsində iştirak edən amillər sənayenin inkişafı ilə əlaqədar olaraq çoxalır. Məsələn, kimyəvi boyalar, xaricə istifadə olunan müxtəlif preparatlar allergen təsir göstərə bilər.

Bununla yanaşı dermatitin əmələ gəlməsində bioloji amillər də rol oynayır. Elə bitkilər var ki, fitodermatitlər əmələ gətirir. Fitodermatitlərin əmələ gəlməsində iştirak edən bitkilərin tərkibində olan efir yağları alkaloidlər, terpen və xlorofillərdir. Həmin bitkilər qurudulanda da allergen təsirini saxlayır.

Məişətdə istifadə olunan qabyuyucu vasitələr, paltarları təmizləyən tozlar və bəzi maye sabunların da onun əmələ gəlməsində rolu var.

Allergik təmas dermatitinin əmələ gəldiyi yer allergenlə bədənin dəri ilə təmasda olduğu hər hansı nahiyəsidir. Əvvəlcə qızartı, şişkinlik və içi serroz möhtəviyyatlı səpgilər əmələ gəlir. Hətta bir həftə ərzində sudurcuqlar açılaraq yerində piqmentasiya qoyur.

Allergen dərinin məhdud sahəsi ilə təmasda olmasına baxmayaraq sensibilizasiya bütün orqanizmdə baş verir. Başlanğıcda sensibilizasiya monovalent, təkrarı residivlərində qrup şəklində, nadir hallarda isə polivalent ola bilər.

Xəstəliyin diaqnozu və müalicəsi haqqında məlumat verən həkim-dermatoloq deyib: "Diaqnozun qoyulmasında allergik dəri sınaqlarının böyük rolu var. Həmin sınaqlar zamanı hər hansı allergenə qarşı həssaslıq olduqda müsbət nəticə alınır.

Müalicə zamanı isə ilk növbədə xəstəliyin səbəbini öyrənib onu uzaqlaşdırmaq lazımdır. Daxilə desinsibilizəedici müalicə, sedativ və antihistamin preparatlar, vitaminlər, lazım gəldikdə steroid hormonlar, xaricə yerli olaraq iltihab əleyhinə kremlər, sulanma olduqda islatmalar təyin olunur. Xəstə bol zülallı və vitaminlərlə zəngin ərzaqlarla qidalanmadan, spirtli içki, duzlu, acı, çox yağlı qidalardan və sitrus meyvələrindən imtina etməlidir. Profilaktik olaraq xüsusi həssaslıq duyduğu allergendən uzaq olmalı, iş rejimini qaydaya salmalı, yuxu və istirahətə xüsusi diqqət yetirməlidir".

## Gülüş cana məlhəmdir

***Bir çox həkimlərin apardığı müşahidəyə görə, əksər ürək problemləri təəssüf ki, vaxtında bu orqanın qayğısına qalmamaq və qorumamaq nəticəsində əmələ gəlir. Çəkisi artıq olanlar digərlərinə nisbətən ürək-damar xəstəliklərindən daha çox əziyyət çəkirlər. Belə ki, artıq çəki ürəyi daha intensiv işləməyə məcbur edir.***

Ürəyin həmişə sağlam olması üçün vaxtaşırı profilaktik tədbirlərin aparılması mütləqdir. Bunun üçün ilk növbədə qidalanmaya ciddi nəzarət etmək, pəhriz saxlamaq lazımdır. Qida rasionu meyvə-tərəvəz, balıq, dəniz məhsulları, göyərti, qoz-fındıq, ağartı, qınlı paxlalı bitkilər, çovdar çörəyi və zeytun yağı ilə zəngin olmalıdır.

Çəkiyə nəzarət etmək və çox yeməmək də vacib şərtlərdən biridir. Ən mühüm məsələlərdən biri onurğa sütununu möhkəmləndirməkdir, çünki bütün orqanlar mərkəzi sinir sistemi ilə sıx əlaqədardır. Ürəyin "məşq" etdirilməsi də onu möhkəmləndirir, gərginliyə uyğunlaşmanı yaxşılaşdırır. Bunun üçün hər gün idmanla məşğul olmaq və səhər gimnastikası etmək lazımdır. Orqanizmin normal fəaliyyət göstərməsi üçün hər gün piyada gəzmək də əsas şərtlərdən biridir. Oturaq həyat tərzi nəticəsində orqanizmdə bütün mühüm proseslər, o cümlədən maddələr mübadiləsi yavaşıyır, immun sisteminin işi zəifləyir və bunun nəticəsində müxtəlif xroniki xəstəliklər-piylənmə, şəkərli diabet və insult inkişaf etməyə başlayır.

Gündə azı 20 dəqiqə parkda, bağda və ya yaşıllıqlar zonasında təmiz havada piyada gəzmək ürəyin müntəzəm "məşqlərə" uyğunlaşmasına kömək edir.

Ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin vəziyyətini yaxşılaşdırmaq üçün sağlam gülüşə, xoş əhvali-ruhiyyəyə də ehtiyac var. İnsan güləndə sinir və ürək-damar sistemlərinin, tənəffüs yollarının fəaliyyəti və orqanizmin hormonal vəziyyəti yaxşılaşır. Bir çox tədqiqatlar nəticəsində sübut olunub ki, gülüş orqanizmdə stresslə bağlı hormonların səviyyəsini azaldır.



## Dəniz qumu insan orqanizmi üçün faydalıdır



***Gümüşü suların çırpılaraq geri qayıtdığı, qırçın dalğaların baltaqqulağı ilə zənginləşdirdiyi qumlu sahillər istirahət məkanı olmaqla yanaşı, həm də sağlamlıq və şəfa mənbəyidir. Bir sıra xəstəliklərin müalicəsində dəniz qumunun xüsusi əhəmiyyəti var.***

Dəniz qumu insan orqanizmi üçün çimmək və günəş vannası qədər faydalıdır. Nəm dəniz qumunda gəzmək damarları genişləndirir, arterial təzyiqi normallaşdırır, miqrenə müsbət təsir göstərir. Revmatizmdən əziyyət çəkənlərə də qum üzərində gəzmək məsləhət görülür.

Qumun istiliyi dəri, oynaq və daxili orqanların reseptorlarını qıcıqlandırır, mexaniki təzyiq dəri və yumşaq hüceyrələrin qan və limfotik damarlarına təsir edərək kapillyar və arteriyaların işini yaxşılaşdırır, bununla da qan axını gücləndirir və onun bölüşdürülməsi baş verir, ürək-damar sisteminin iş prinsipini nizama salır. Dəniz qumu təbii pilinq rolu oynayır və bəzi dəri xəstəliklərini müalicə edir, ayaq dabanlarına təbii pedikür təsiri bağışlayır. Qum ilə yüngülcə ovulan dəri daha çox təmiz və təbii görünür. Dəniz qumu qan dövranını sürətləndirdiyi üçün oynaq ağrılarını yüngülləşdirir.

Lakin dəniz qumunun faydası ilə yanaşı zərərli cəhətləri də var. Məsələn, təzyiq, şəkər, ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlərin uzun müddət qumda basdırılmış vəziyyətdə qalması məsləhət görülmür.

## Ürək xəstələri qidalanmalarına daha ciddi fikir verməlidirlər



***Ürəyində narahatlığı olanlar yay aylarında mütəmadi həkim nəzarətində olmalıdırlar.***

Mərkəzi Gömrük Hospitalının invaziv kardioloqu Emin Hacıbalayev AZƏRTAC-a müsahibəsində son illər ürək xəstələrinin sayının artmasının səbəbini açıqlayıb. O deyib ki, xəstə ürəyində müəyyən problemlərin olduğunu bilirsə, hər zaman üzərində həkimin təyin etdiyi dərmanları gəzdirməlidir. Yəni, dərman qəbulu davamlı şəkildə olmalıdır. Xəstə özünü bir müddət yaxşı hiss edirsə, dərmanın qəbulunu kəsməlidir. Bir çox xəstələr belə hallarda dərman qəbulundan imtina edirlər. Bu, düzgün hal deyil. Yay aylarında tərləmələr tez-tez baş verir, bədəndə su itkisi olur. Bununla da qan daha tez laxtalanmağa başlayır. Hətta heç bir problem olmayan insanlarda müəyyən problemlər meydana çıxır. Bunun üçün isti vaxtlarda günün altında maksimum dərəcədə az olmaq məsləhətdir, daha çox maye qəbul edilməlidir.

E.Hacıbalayev bildirib ki, invaziv kardiologiya koronar angioqrafiya adlanan diaqnostika və stent qoyulması da daxil olmaqla geniş və əhəmiyyətli bir sahəni əhatə edir. İnvaziv ürək əməliyyatı sayəsində ürəyi qidalandıran damarlarda darlıq və ya tıxanma olub-olmadığı müəyyən edilir. Koronar angioqrafiyadan sonra dərman müalicəsi, balon-stent tətbiq olunması və ya koronar şuntlama (by-pass) əməliyyatına qərar verilə bilər. Açıq ürək əməliyyatı diaqnozu angioqrafiyadan sonra verilə bilər. Birinci angioqrafiya edirik, damarlardakı vəziyyətə baxılır. Angioqrafiyadan əvvəl xəstə bəzi müayinələrdən keçməli və müəyyən analizləri verməlidir. İnsanın əsas 3 damarında daralma sayı çoxdursa, yəni, damarlarda daralma faizi çoxdursa, bu halda açıq ürək əməliyyatı tövsiyə edilir. Bu hal adətən şəkər xəstələrində baş verir. Əgər daralma sayı azdırsa, ilk növbədə, stent məsləhət görürük. O cümlədən kəskin infarktla gələn xəstələrdə stent daha məsləhətlidir.

Son illər ürəyə stent qoyulmasında da artım müşahidə olunur. Bunun səbəbi həm diaqnostika sahəsində olan irəliləyişlə, həm də insanların öz sağlamlığına fikir verməsi ilə bağlıdır. Yəni, vətəndaşlar vaxtında həkim yanına gələrək öz sağlamlıqlarını qoruyurlar. Lakin stent qoyulmasının şərtləri və göstəriciləri var. Stentin qoyulmasına səbəb damarların 70 faizdən çox daralmasıdır. Əgər xəstədə belə hal varsa, stentin qoyulması tövsiyə edilir. Bu da, öz növbəsində, kəskin infarkt qarşısının alınmasına kömək edir.

İnvaziv prosedurlarla müalicə zamanı risklərdən danışan kardioloq qeyd edib ki, risklərin ümumi faizi 1000/1 az təşkil edir. Bunların içində insult, qanaxma, damarların cırılması, hətta ölüm riskləri var. Həmçinin allergik reaksiyaları da buraya daxil etmək olar. İnvaziv prosedurların birinci məqsədi diaqnozu düzgün qoymaq, digəri isə xəstəni sağaltmaqdır. Bu prosedurları etməkdə məqsəd xəstənin ömrünü uzatmaq, onun yaşayış səviyyəsini yüksəltməkdir.

İnvaziv prosedurlardan sonra xəstə əgər anju olunubsa və damarlarda ciddi darlıq yoxdursa, biz tərəfdən müalicə yazılır ki, darlıq artmasın. Kəskin infarktın qarşısını almaq üçün müəyyən qan durulducu dərmanlar məsləhət görülür. Ürək xəstələri xroniki xəstələr sayıldığı üçün mütəmadi həkim nəzarətində olmalı, həkimin tövsiyəsinə uyğun olaraq ilboyu müəyyən prosedurlardan keçməlidir. Qan duruldan terapiya, ürək çatışmazlığı terapiyası, həmçinin əgər xəstənin təzyiqi varsa ona uyğun müalicə almalıdır.

Ümumiyyətlə, əgər xəstədə stent varsa və ya yoxdursa mütləq gündəlik qida rejiminə əməl edilməlidir. Çünki son vaxtlar ürək xəstələrinin artmasının səbəblərindən biri də düzgün qidalanmanın olmamasıdır. Ürək xəstələri qidalanmalarına daha ciddi fikir verməlidirlər.

## Altsheymer xəstəliyini illər öncə müəyyən etmək olacaq



***Altsheymer xəstəliyini otuz il öncədən müəyyən etmək mümkün olacaq.***

Xəstəliyin diaqnozu üçün yeni qan analizi müəyyən edilib. Təhlillər üçün sadəcə bir neçə damcı qan tələb olunur.

Bir çox patologiyalarda olduğu kimi Altsheymer xəstəliyinin müalicəsində də ilkin diaqnoz əsas rol oynayır. Hazırda bu xəstəlik olduqca irəliləmiş mərhələlərdə müəyyən olunur.

Bu, yeni üsul otuz il əvvəldən yaranabiləcək problemin əlamətlərinin diaqnozunu qoymağa imkan verir. Yaponiya və Avstraliyadan olan 373 pasiyent üzərində tətbiq edilən göstəriciyinin dəqiqliyinin 90 faiz təşkil etdiyi müəyyənləşib. Test beta-amiloid zülalının müəyyən edilməsinə əsaslanır. Belə ki, bu zülalın qanda müəyyən edilməsi xəstəliyin ilkin əlaməti hesab edilir.

Hazırda tədqiqatçılar tərəfindən xəstəliyin diaqnozunun öncədən qoyulması üçün başqa testlər də araşdırılır.

Melburn Universitetinin aparıcı tədqiqatçılarından olan Kolin Mastersin sözlərinə görə testin təxminən beş ildən sonra 55-60 yaşlı pasiyentlər üzərində tətbiqinə başlamaq mümkün olacaq.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2316